

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Məramı aydın və bənzərsiz xanım



6

SƏS
№ 150 (6833)
23 avqust 2023-cü il.
Qiymәti 60 qәpik

# Orta Dəhlizdə birləşən maraqlar



2

Azərbaycanla Özbəkistan arasında əlaqələr böyük potensiala malikdir, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının sabitliyinin qorunmasında və inkişafında mühüm rol oynayır

# Nağıllarla, miflərlə yaşayanların QƏFLƏT YUXUSU



8

## Milli parklara və bulaqlara giriş zamanı ödənişin tələb olunması qanunidir?



11

## Uşaq doğumu azalır, əhalimiz qocalır: Nə etməli?



15

## İnternetin keyfiyyəti turizmə necə təsir göstərir?




16



## Dünyanın çörək imtahanı

10

## Ta bu qədər də yox...



10

# Orta Dəhlizdə birləşən maraqlar

**Azərbaycanla Özbəkistan arasında əlaqələr böyük potensiala malikdir, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının sabitliyinin qorunmasında və inkişafında mühüm rol oynayır**

***Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev avqustun 22-də Azərbaycana dövlət səfərinə gəlib. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və xanımı Ziroatxon Mirziyoyevanı qarşılayıblar. Sonra Azərbaycan və Özbəkistan prezidentlərinin təkbətək görüşü baş tutub.Hər iki ölkənin prezidentlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.***



Prezident İlham Əliyev: **Azərbaycanı və Özbəkistanı qədim tarix birləşdirir**

”Azərbaycanı və Özbəkistanı qədim tarix birləşdirir və bu təməl qarşılıqlı fəaliyyətin inkişafı üçün əsasdır. Sevindirici haldır ki, bütün istiqamətlərdə əməkdaşlıq çox səmərəli və məhsuldar gedir”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə keçirdiyi geniş tərkibdə görüşdə deyib.

Son vaxtlar ölkələrimiz arasında dövlətlərarası münasibətlərin ən yüksək səviyyəyə çatdığını vurğulayan dövlətimizin başçısı qeyd edib: ”Özbəkistana dövlət səfərimi və mənə göstərilən qonaqpərvərliyi məmnunluqla xatırlayıram. Həmçinin demək istəyirəm ki, Özbəkistanın şahidi olduğum sürətli inkişafı, transformasiya, islahatlar, ölkənin Mərkəzi Asiya regionunun güclü sənaye dövlətinə çevrilməsi məndə dərin təəssürat yaratdı”.



Şavkat Mirziyoyev: **Özbəkistanda Heydər Əlirza oğlunun xatirəsinə tamamilə fərqli yanaşılır**

”Bu il əlamətdar ildir. Çünki Ulu Öndər, Azərbaycanın rəhbəri, Azərbaycan xalqının oğlu Heydər Əliyevin yüz illik yubileyi Özbəkistanda çox yüksək səviyyədə keçirilib”. Bu sözləri isə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi geniş tərkibdə görüşdə söyləyib.

Özbəkistanda Heydər Əlirza oğlunun xatirəsinə tamamilə fərqli yanaşıldığını deyən Prezident Mirziyoyev bildirib: ”Hesab edirəm ki, görülən bütün işləri Özbəkistan xalqı tamamilə başqa cür dəyərləndirir. Onu görən, onunla qarşılaşan, onunla işləyən yaşlı nəsil də bizim Özbəkistan gənclərinə çatdırıblar ki, əslində, Azərbaycanın və Özbəkistanın həyatın həmin çətin anlarında qarşıya qoyulan hədəflərə çatması, Azərbaycan və Özbəkistan rəhbərliyinin bir-birini başa düşməsi, çox şey əldə etməsi üçün Heydər Əlirza oğlu uzun illər əlindən gələni edib”.

Azərbaycan və Özbəkistan dövlət başçıları arasında geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşü olub.

Bu gün keçirilən yüksək səviyyəli görüşlərdə iki ölkə liderləri Azərbaycan- Özbəkistan strateji tərəfdaşlığının dərinləşdirilməsi və çoxşaxəli əməkdaşlığın, ilk növbədə, siyasi, ticarət-iqtisadi, nəqliyyat-kommunikasiya və mədəni-humanitar sahələrdə inkişafı məsələləri müzakirə edilib.

**Azərbaycan-Özbəkistan münasibətləri: Vacib olan nədir?**

Son illər Bakı ilə Daşkənd arasında rəsmi əlaqələr əhəmiyyətli dərəcədə fəallaşıb. Orta dəhlizdən keçən Xəzər dənizinin şərq və qərb hissəsinin ölkələri arasında yaxınlaşma prosesi xeyli sürətlənib. Bəs, bu iki ölkənin qarşılıqlı əməkdaşlıqdan maraqları nədir?

Son zamanlar Mərkəzi Asiya ilə Qafqaz arasında əlaqələrin gücləndiyi nəzərə çarpır. Şimal dəhlizində sabitliyin pozulması, xüsusən də Rusiya-Ukrayna müharibəsi ilə birlikdə Avrasiya ölkələrini, o cümlədən Çini yeni istiqamətlər axtarmağa sövq edib. Hazırda Xəzər dənizinin şərq və qərb hissəsində Orta dəhlizdən keçən ölkələr arasında yaxınlaşma prosesi xeyli sürətlənib.



Azərbaycan, Qazaxıstan və Türkmənistan arasında əlaqələrin möhkəmlənməsi Şərqlə Qərb arasında Orta Dəhlizdən istifadənin əhəmiyyətini və potensialını artırıb. Bakı ilə Daşkənd arasında əlaqələrin möhkəmlənməsi bu prosesləri sürətləndirib. Azərbaycan Prezidenti İlham Əliyevin 21-22 iyun 2022-ci il tarixlərində Özbəkistana səfəri zamanı iki ölkə arasında 19 saziş imzalanıb. Sazişlərin əsas məqsədi strateji tərəfdaşlığın yaradılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsidir.

Əgər 2019-cu ildə ölkələr arasında ticarət dövriyyəsinin həcmi 81 milyon dollar idisə, 2020-ci ildə bu rəqəm 82,3 milyon dollar olub. Bundan əlavə, ikitərəfli əlaqələrin genişlənməsi ilə ticarət dövriyyəsinin həcmi 16% artaraq 111,9 milyon dollara çatıb. Bu göstərici 2022-ci ildə də artıb. Sonrakı illərdə də yüksəliş trendini davam etdirməkdədir. Hazırda Bakı və Daşkənd ümumi dəyəri 700 milyon dollardan çox olan beş böyük layihənin həyata keçirilməsinin maliyyə və texniki aspektləri üzərində işləyir.

Mineral ehtiyatları, Mərkəzi Asiyanın ən böyük əhalisi, iqtisadi liberallaşma addımları və geosiyasi mövqeyi ilə Özbəkistan Avrasiyanın ”parlaq ulduzu” sayılır. Azərbaycan Asiyadan Xəzər dənizi ilə Avropaya gedən ən mühüm ”qapı”dır. İki ölkə arasında möhkəmlənən münasibətlərin qarşılıqlı faydalı yanaşma ilə daha yüksək səviyyəyə yüksələcəyi öz-özünə aydındır.

*Ardı Səh. 3*

# Orta Dəhlizdə birləşən maraqlar

**Azərbaycanla Özbəkistan arasında əlaqələr böyük potensiala malikdir, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının sabitliyinin qorunmasında və inkişafında mühüm rol oynayır**



**Əvvəli Səh. 2**

2022-ci ildə Türkiyə, Özbəkistan və Azərbaycanın xarici işlər, ticarət və nəqliyyat nazirləri "Orta Dəhliz" mövzusunda görüş keçirib. 2022-ci il avqustun 2-də keçirilən görüşün nəticəsində Özbəkistan və Azərbaycan arasında münasibətləri yeni mərhələyə çıxaran Daşkənd Bəyannaməsi imzalanıb. İki ölkə arasında xüsusilə mühüm hadisə enerji sahəsində əməkdaşlıq olub. Bundan əlavə, tərəflər "Özbəkneftqaz" və SOCAR kimi karbohidrogen ehtiyatlarının kəşfiyyatı və hasilatı üzrə birgə layihələrin işlənib hazırlanması, eləcə də təcrübə mübadiləsi, qarşılıqlı investisiyaların və özəlləşdirmənin təşviqi barədə razılığa gəliblər. Bundan əlavə, Qarabağdakı layihələr üzrə də əməkdaşlıq aparılır. Hazırda Özbəkistanın Qərbə çıxmaq üçün Zəngəzur dəhlizindən istifadə etmək imkanı ən böyük perspektivdir.

Bundan əlavə, Bakı-Daşkənd yaxınlaşması Orta Dəhlizin strateji əhəmiyyətini artırır. Çünki Azərbaycan dənizə çıxışı olmayan Mərkəzi Asiya ölkələri üçün mühüm limandır. Beləliklə, Azərbaycan və Özbəkistan arasında əlaqələrin inkişafının qarşılıqlı fayda gətirəcəyi aydındır. İlk növbədə, ölkələrin yeni iqtisadi maraqları və möhkəm əlaqələri bundan sonra da inkişaf edəcək. Xüsusilə, Özbəkistan Qərbə ən qısa və ən ucuz marşrutla gedə biləcək.

İkincisi, Orta Dəhlizin bütün potensialı işə salınacaq və istifadə olunacaq. Bu, Qafqaz və Mərkəzi Asiya kontekstində regionun güclənməsi deməkdir. Eyni zamanda, bu vəziyyət Çindən Avropaya nəqliyyatı asanlaşdıracaq və Avrasiyada davamlı inkişafı sürətləndirəcək.

Bir sözlə, bu iki ölkə arasında əlaqələr böyük potensiala malikdir və Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının sabitliyinin qorunmasında və inkişafında mühüm rol oynayır.

### Azərbaycan-Özbəkistan: strateji tərəfdaşlıq, əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri

Avqustun 22-23-də Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri proqramına Özbəkistan-Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi və praktiki əməkdaşlığın genişləndirilməsi məsələləri daxil edilib, bir sıra ikitərəfli sazişlərin imzalanması gözlənilir. İki ölkə arasındakı münasibətlərin hazırkı durumu necədir?



**Özbəkistan və Azərbaycanın siyasi sahədə əməkdaşlığı:**

Müstəqilliyin ilk illərində 2 ölkə diplomatik əlaqələr qurub, o vaxtdan indiyədək 13 yüksək səviyyəli qarşılıqlı səfər həyata keçirilib. 2017-ci ildən yüksək səviyyəli kommunikasiyanın aktivləşdirilməsi nümayəndə heyətləri mübadiləsinin artmasına xidmət edib - 6 il ərzində 70-dən çox yüksək səviyyəli səfər, beynəlxalq təşkilatların yüksək səviyyəli görüşləri keçirilib.

**Parlamentlərarası əməkdaşlıq çərçivəsində:**

Parlament nümayəndələri müntəzəm olaraq Özbəkistanda və Azərbaycanda keçirilən prezident və parlament seçkilərində, eləcə də müxtəlif beynəlxalq tədbirlərdə beynəlxalq müşahidəçi qismində iştirak edirlər;

1995-ci ildən iki ölkənin qanunvericilik orqanlarında parlamentlərarası dostluq qrupları fəaliyyət göstərir.

**Ticarət əməkdaşlığı:**

Ölkələr arasında azad ticarət rejimi yaradılıb. 1998-ci ildən Hökumətlərarası Birgə Komissiya (HBK) fəaliyyət göstərir. HBK-nın 12 iclası keçirilib;

Ümumi dəyəri 4,5 mlrd. ABŞ dollarından artıq məbləğdə 50-dən çox investisiya layihəsi və ticarət sazişindən ibarət portfeli formalaşdırılıb;

2023-cü ilin 7 ayı ərzində iki ölkə arasında dövriyyə 143,9 mln. ABŞ dolları (+42,9 faiz) təşkil edib, ixrac 81,2 mln. dollar, idxal 62,7 mln. dollar;

Özbəkistanda Azərbaycan kapitalının iştirakı ilə 203 müəssisə fəaliyyət göstərir, onlardan 66-sı birgə müəssisə, 137-si isə 100 faiz xarici kapitalın iştirakı ilə yaradılıb;

2023-cü ilin fevralında Özbəkistan və Azərbaycan nizamnamə kapitalı 500 milyon dollar olan İnvestisiya Fondu yaradıblar.

Nəqliyyat sahəsində əməkdaşlıq:

2019-cu ildə Daşkənddə dəmir yolu idarələrinin rəhbərlərinin beynəlxalq multimodal marşrutun inkişafı məsələlərinə dair iclası keçirilib. Sazişlərin icrası çərçivəsində Qırğızıstandan Özbəkistan ərazisindən keçməklə Poti limanına (Gürcüstan) ilk sınaq dəmir yolu layihəsi 2020-ci ilin yanvarında uğurla istifadəyə verilib;

2022-ci ildən ölkələr arasında hava sərnişin və yük daşımaları bərpa edilib. 2023-cü ilin 6 ayı ərzində yükdaşımaların ümumi həcmi 47 min ton (+21%) təşkil edib. Bunun 26,9 min tonu dəmir yolu nəqliyyatında, 19,0 min tonu avtomobil nəqliyyatında;

Bakıdan Daşkənd, Səmərqənd, Urganç və Fərqanəyə həftədə 15 birbaşa uçuş həyata keçirilir;

2023-cü ildə Azərbaycan tərəfi dəmir yolu ilə yüklərin öz ərazisindən daşınması üçün 2021-ci ildə müəyyən edilmiş 50 faizlik endirimin müddətini uzadıb.

**Mədəni-humanitar sahədə nailiyyətlər:**

Azərbaycanın mədəniyyət nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Status İncəsənət Forumunda (2018), Birinci Beynəlxalq Xalq Tətbiqi Sənəti Festivalında (2019) və "Mərkəzi Asiya dünya sivilizasiyalarının qovşağında" Beynəlxalq Mədəniyyət Forumunda (2021) iştirak edib;

Özbəkistanın mədəniyyət naziri Azərbaycanda səfərdə olub, "Beynəlxalq Bakı Forumu" (2018), "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu" (2019), "Nizami Gəncəvi: Mədəniyyətlər arasında körpü" (2021), eləcə də "Şuşa - 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı" (2023) adlı tədbirin açılış mərasimində iştirak etmişdir;

Özbəkistan Azərbaycanın Füzuli şəhərində 960 şagird yerlik məktəbin tikintisinə dəstək verir.



**Özbəkistan və Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsi üçün aşağıdakı perspektivlər mövcuddur:**

1. Enerji sahəsində əməkdaşlığın inkişafı, o cümlədən enerji nəqli, qaz kəmərlərinin və elektrik şəbəkələrinin tikintisi hər iki ölkə üçün faydalı ola bilər.

2. Özbəkistan və Azərbaycanın ticarət və investisiya əməkdaşlığını inkişaf etdirmək potensialı var. Ticarətin genişləndirilməsi, müxtəlif sahələrdə birgə müəssisələrin yaradılması iqtisadi əlaqələrin möhkəmlənməsinə xidmət edir.

3. Hər iki ölkənin öz tarixi və mədəni irsi var. Turizm sənayesinin inkişafı, o cümlədən turist axınının mübadiləsi, turizm istiqamətlərinin yaradılması və infrastrukturun inkişafı daha çox turist cəlb edəcək və iki ölkə arasında qarşılıqlı anlaşma və dostluq münasibətlərinin inkişafına səbəb olacaqdır.

4. Təhsil və mədəniyyət sahəsində əməkdaşlıq bilik və qabaqcıl təcrübə mübadiləsinə kömək edir. Tələbə mübadiləsi proqramları, universitetlərdə və məktəblərdə təhsil, mədəni tədbirlər və sərgilər iki xalq arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə və əlaqələrin möhkəmlənməsinə imkan verir.

5. Özbəkistan və Azərbaycan Mərkəzi Asiya və Qafqaz regionunda əsas nəqliyyat və logistika mərkəzləridir. Nəqliyyat, avtomobil, dəmir yolu və tranzit marşrutlarının tikintisi və modernləşdirilməsi sahəsində əməkdaşlıq regional inteqrasiyanın təkmilləşdirilməsinə, nəqliyyat-logistika infrastrukturunun inkişafına xidmət edir.

Səfər avqustun 23-dək davam edəcək.

***V.VƏLİYEV***

# Möhkəm təmələ əsaslanan iqtisadiyyat

## PREZİDENT İLHAM ƏLİYEV: "Əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcək"

Davamlı inkişaf yolu ilə irəliləyən ölkəmizin bütün sahələrdə göstəriciləri ildən-ilə artmaqdadır. Həyata keçirilən islahatlar, vətəndaşlarımızın sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar, qeyri-neft sektorunun inkişafı üzrə görülən işlər öz müsbət nəticələrini verməkdədir. Bunu iyunun 11-də Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə səslənən rəqəmlər də təsdiqləyir. Cari ilin ilk altı ayının nəticələri deməyə əsas verir ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr icra edilir. Ötən altı ayda nəzərdə tutulmuş hədəflərə nail olunub.

Sözsüz ki, hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil iqtiadiyyatın yüksək olmasıdır. Ölkə başçısı müşavirədə çıxışı zamanı görülmüş işlər, əldə olunan nəticələr haqqında geniş məlumat verdi, həmçinin qarşıda dayanan vəzifələri müəyyənləşdirdi. Qeyd edildi ki, ölkəmiz uğurla inkişaf edir və bütün istiqamətlər üzrə qarşıya qoyduğumuz vəzifələr icra edilir. Müstəqil xarici siyasət yürüdən, tərəfdaşları ilə səmimi anlaşma siyasətinə üstünlük verən, dünyada, regional problemlər və qlobal məsələlərlə bağlı öz mövqeyini ədalət prinsipləri əsasında bildirən, beynəlxalq hüququn pozulmasına, milli münaqişələrə, irqi ayrı-seçkiliyə qarşı mübarizədə fəal iştirak edən Azərbaycan dünyanın siyasi, iqtisadi, humanitar platforması adını əməli fəaliyyəti ilə doğruldur.



### 6 AYIN GÖSTƏRİCİLƏRİ VƏ UĞURLU NƏTİCƏLƏR RƏQƏMLƏRLƏ

Müşavirədə 6 ay ərzində əldə edilən uğurlar xüsusi olaraq qeyd edilib. Dövlət başçımızın qeyd etdiyi kimi, bütövlükdə altı ay ərzində ölkə iqtisadiyyatı inkişaf edib, qeyri-neft sektoru və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıb. Qeyri-neft sənayesi 6,5 faiz qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artıb, Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş bərpa-quruculuq işləri geniş vüsət alıb, iqtisadi və sosial sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilib və uğurlar da ortadadır. Həmçinin, ölkəmizin maliyyə imkanları da genişlənib ki, bu da müvafiq sahədə aparılan islahatların uğurlu nəticəsi və şəffaflığın təmin edilməsi ilə bağlıdır. Ölkənin bu ilki dövlət büdcəsi rekord həddə - 33 milyard manatdan çox səviyyəyə qalxıb. Bu da, öz növbəsində, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edilməsinə, ilk növbədə azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verməyə və Azərbaycanın hərbi gücünü daha da artırmağa imkan verir. Bütövlükdə isə yarım ildə 3 milyard manatdan çox vəsait əlavə edilib. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə, 1,1 milyard manat isə ölkənin hərbi potensialının gücləndirilməsinə yönəldilib. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir. Ölkə başçısı qeyd edib ki, mütləq rəqəmlərdə ölkəmizin xarici borcu cəmi 6,7 milyard dollardır və bu da ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Birinci altı ayda ümumi daxili məhsul 60 milyard manatdan çox təşkil etmişdir.

### BİZ QARABAĞI, ZƏNGƏZURU YENİDƏN QURURUQ, YENİDƏN QURMALIYIQ

Prezident İlham Əliyev müşavirədəki çıxışında Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı görülən işlərə xüsusi diqqət yetirib. O, bildirib ki, artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtması təmin edilib. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər artıq burada bərpa olunan beş yaşayış məntəqəsində vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə, Böyük Qayıdış Proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. İşğaldan azad edilən ərazilərdəki şəhər və qəsəbələrin Baş planları hazırlanaraq təsdiqlənib, hazırda bir çox yerlərdə fəal inşaat işləri aparılır. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcəkdir. xususi olaraq qeyd edilməlidir ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir.

Dövlətimizin başçısı onu da söyləyib ki, heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik: "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik".

Bir sözlə, bu gün işğaldan azad olunmuş torpaqlarda aparılan möhtəşəm yenidənqurma işləri də ölkənin iqtisadi qüdrətinin daha bir nümayişi kimi qiymətləndirilməlidir. İşlərin miqyası bütün dünyanı, sözün əsl mənasında, heyrətə gətirir. Bəli, güclü iqtisadiyyat güclü dövlət deməkdir. Dövlət başçımız çıxışlarının birində dediyi kimi: "İqtisadi müstəqillik əldə edilmişdir və biz məhz buna görə siyasi müstəqillik əldə etmişik, beynəlxalq müstəvidə müstəqillik əldə etmişik. Heç kim bizim iradəmizə təsir edə bilməz, heç kim bizə heç nəyi diktə edə bilməz, heç kimdən asılı deyilik və əminəm ki, heç vaxt heç kimdən asılı olmayacağıq. Asılı olsaydıq, Qarabağ bu günə qədər işğal altında idi. Ona görə iqtisadi müstəqillik əsas amillərdən biridir və burada da böyük nailiyyətlər var".






Göründüyü kimi, göstərilən rəqəmlər bir daha Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu təsdiqləyir, ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir. 2003-cü ildən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya əsas hədəf kimi qoyan Prezident İlham Əliyevin çevik, qətiyyətli və düzgün qərarlar qəbul etməsinin məntiqi nəticəsidir ki, Azərbaycan artıq son 20 ildə hər bir çətinlikdən uğurla, az itki ilə çıxmağa nail olur.Ümumilikdə, dövlət başçımızın 2023-cü ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki çıxışı bir daha göstərdi ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər, sahələr üzrə qarşıya qoyulan vəzifələr yüksək səviyyədə icra edilir və bundan sonra da Azərbaycan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün vəzifələri uğurla yerinə yetirəcəkdir. Çünki hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil iqtisadiyyatın yüksək olmasıdır.

***RƏFİQƏ KAMALQIZI***

# Si Cinpin Afrikanı Çinə yaxınlaşdırır

***Çin prezidenti Xi Jinping, çərşənbə axşamı açılacaq BRİKS sammitində iştirakla birlikdə dövlət səfəri üçün bazar ertəsi Cənubi Afrikaya uçub. Afrikada aparıcı mövqe tutan Cənubi Afrikanın rəhbərliyi ilə tamhüquqlu danışıqlar aparmaq qərarı Pekinin Qara Qitədə mövqelərini möhkəmləndirməkdə davam etmək istəyi ilə diktə olunur. Çin Qərb şirkətlərini Afrikadakı ən böyük infrastruktur layihələrindən sıxışdırarkən, Qərb Çin iqtisadiyyatında böhranın olacağını proqnozlaşdırır və afrikalıları Çinlə əməkdaşlığın riskləri barədə xəbərdar edir.***



Si Cinpinin Cənubi Afrikaya səfəri iki ölkə arasında əlaqələrin qurulmasının 25-ci ildönümünə təsadüf edir və diplomatik iyerarxiyada ən yüksək dövlət səfəri statusuna malikdir. Bunu BRİKS sammitində iştirakla birləşdirmək ideyası bu təşkilata sədrlik edən və avqustun əvvəlində Çin prezidentinə dəvət göndərən Cənubi Afrika Respublikasının prezidenti Siril Ramafosa məxsusdur. Səfər ərəfəsində Prezident Ramafosa Cənubi Afrika xalqına həftəlik mesaj göndərərək Pekin ilə əməkdaşlıq perspektivini və onun ölkə üçün əhəmiyyətini açıqlayıb. "Ölkələrimiz arasında əlaqələr onillik strateji əməkdaşlıq proqramı (2020-2029) ilə dəstəklənir. Sədr Si Cinpinin səfəri ikitərəfli əməkdaşlıq sahələrində irəliləyişi qiymətləndirmək və onun dərinləşdirilməsi yollarını müəyyən etmək imkanı verir. Çin Cənubi Afrikanın ən böyük ticarət tərəfdaşıdır" deyən Cyril Ramaphosa "Cənubi Afrikanın öz inkişaf yolunda Çindən öyrənəcəyi çox şey var" deyib.



Prezident enerji sahəsini ikitərəfli əməkdaşlığın prioritet istiqaməti adlandıraraq qeyd edib ki, Cənubi Afrikada bu sahədə artıq 200-ə yaxın Çin şirkəti fəaliyyət göstərir. Bundan əlavə, imzalanmaq üçün hazırlanan sənədlər paketinə ticarət, tikinti, mədənçıxarma sənayesi sahələrində sazişlər də daxil edilib.

Ümumilikdə, son dörddəbir əsrdə Çin və Cənubi Afrika arasında ticarət 600 dəfədən çox artıb - 1998-ci ildəki 1 milyard Cənubi Afrika randından (52,6 milyon dollar) 2022-ci ildə 614 milyarddan (32 milyard dollar) çox olub. Cənubi Afrika tərəfi üçün əsas problem Pekinlə ticarətdə əhəmiyyətli kəsir olaraq qalır. Danışıqların mövzularından biri Cənubi Afrikanın Çinə ixracı ilə bağlı məsələlər olacaq.

Cənubi Afrika Respublikasının rəhbərliyi ilə avqustun 24-dək davam edəcək görüş və danışıqlardan əlavə, Si Cinpin BRİKS sammiti çərçivəsində Çin və Afrika ölkələri arasında keçiriləcək dialoqa sədrlik edəcək. Çin liderinin Afrikaya diplomatik yürüşü onun missiyasının dünyanın aparıcı güclərinin daxil olduğu qitə uğrunda döyüşə necə təsir edəcəyi ilə bağlı müzakirələrin yeni dalğasına səbəb olub.



Si Cinpinin Cənubi Afrikaya yola düşdüyü gün Britaniyanın "Financial Times" qəzeti "vəziyyətlə tanış olan adı açıqlanmayan mənbələrə" istinadən yazıb ki, Yohannesburq sammitində Çin BRİKS ətrafında getdikcə daha çox birləşən inkişaf etməkdə olan dövlətləri bu təşkilatın gələcəkdə G7-yə qarşı tarazlığa çevrilməsinə itələyə bilər. "Financial Times" BRİKS liderlərinin perspektivləri müzakirə edəcəklərini xatırladaraq adının çəkilməsini istəməyən çinli rəsmidən sitat gətirib: "Əgər biz BRİKS-i qlobal ÜDM-də G7 ilə eyni paya sahib olmaq üçün genişləndirsək, o zaman dünyada kollektiv səsimiz daha da güclənəcək". Bu, təşkilatların tarixindəki ən böyük genişlənmə nümunəsidir. Təqdim olunan ərizələrə əsasən, BRİKS-də ən çox işə qəbul edilənlər təşkilatın sıralarına Afrika qitəsindən qoşulmalıdırlar .

Öz növbəsində, Çin və Qərb ölkələrinin son illərdə apardıqları Afrika uğrunda mübarizəni təhlil edən Honq-Konqun "South China Morning Post" qəzeti qeyd edir ki, çinli podratçıların Qərb şirkətlərini Afrikanın ən böyük infrastruktur bazarından sıxışdırıb çıxarması üçün təxminən on il lazım olub. 1990-cı illərdə Afrika qitəsində hər on tikinti layihəsindən səkkizi Qərb şirkətləri tərəfindən həyata keçirilirdi. Si Cinpin 2013-cü ildə yeni Çin lideri olduqdan və Pekin özünün inteqrasiya meqa-layihəsini "Bir kəmər, bir yol" təqdim etdikdən sonra vəziyyət kökündən dəyişməyə başladı. Onun həyata keçirilməsi zamanı Çin Afrikada bir neçə böyük infrastruktur layihəsinə start verib. Onların arasında Keniya və Efiopiyada dəmir yolu xətlərinin, həmçinin Cibuti və Nigeriyada limanların tikintisi var. Çin şirkətləri Zimbabve və Namibiyada litium hasil etməyə başlayıblar, Konqo Demokratik Respublikası və Zambiya isə Çin şirkətləri üçün əsas kobalt mənbələrinə çevrilib. Bundan əlavə, Çin batareyaların istehsalı üçün əsas elementlərdən biri olan litiumun təkrar emalı bazarının təxminən 58%-nə nəzarət edir.

Eyni zamanda, ümumilikdə Çin artıq qitə dövlətləri üçün ən böyük ticarət tərəfdaşına çevrilib. Çinin Afrika ölkələri ilə ticarəti 2021-ci ildə 250 milyard dollara çatıb, ABŞ-da isə bu rəqəm 62 milyard dollar olub.

Qərbin Afrika uğrunda döyüşdə necə uduzması onun üçün investisiya aktivliyinin getdikcə artan mənfi dinamikası ilə təsvir olunur. Son iki ildə Çinin Saharadan cənubda Afrikadakı infrastruktur layihələrinin ümumi həcmi 155 milyard dollara çatıb.Bunun fonunda ABŞ-ın bu regiona birbaşa investisiyası 2021-ci ildə cəmi 44,8 milyard dollar təşkil edib.

Hinrich Foundation araşdırmasının müəlliflərinin fikrincə, maliyyələşmədə Çinin xeyrinə olan belə boşluq ona Afrika hökumətlərinə əhəmiyyətli təsir göstərməyə və yeni cəlbedici müqavilələr almağa imkan verib. Eyni zamanda, Çinin Afrika ölkələrinə verdiyi kreditlər son illərdə əhəmiyyətli dərəcədə azalıb, 2016-cı ildəki 28,4 milyard dollardan 2020-ci ildə cəmi 1,9 milyard dollara düşüb. Bu isə qismən bəzi Afrika ölkələrinin borc öhdəliklərini yerinə yetirməkdə üzləşdiyi çətinliklərlə əlaqədardır. Faktı "South China Morning Post" da təsdiq edib.

Bu arada Qərb Afrikada Çinin hərəkətlərinə dözmək niyyətində deyil və cavab addımları atmağı düşünür. Avropa İttifaqı "Bir kəmər, bir yol" çərçivəsində Çin investisiyalarına cavab olmalı olan Qlobal Gateway strategiyasını təsdiqləyib. Avropa təşəbbüsü 2021-ci ildən 2027-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard avro cəlb etməyi nəzərdə tutur. Bundan əlavə, G7 ölkələri inkişaf etməkdə olan ölkələrdə infrastruktur layihələrinə 600 milyard dollar vəsait cəlb etmək və sərmayə qoymaq təşəbbüsü irəli sürüblər. Afrika bu vəsaitlərin əsas alıcılarından biri olmalıdır.

Çin Qərb şirkətlərini Afrikadakı infrastruktur layihələrindən sıxışdırarkən, Qərb Çin iqtisadiyyatında böhranın olacağını proqnozlaşdırır və Afrika ölkələrinə Çinlə əməkdaşlığın yaratdığı risklər barədə xəbərdarlıq edir. Si Cinpinin Cənubi Afrikaya səfərindən bir müddət əvvəl ABŞ prezidenti Co Bayden Çini iqtisadi problemlərinə görə saatlı bomba adlandırıb. "Pis insanların problemləri olduqda, pis işlər görürlər" deyə Co Bayden xəbərdar edib.

Bir sıra Qərb ekspertlərinin fikrincə, Çin sədri Si Tsinpinin milli təhlükəsizliyə diqqət yetirməsi iqtisadi səyləri məhdudlaşdırır və investorları qorxudur. Gavekal Dragonomics tədqiqat şirkətinin əməkdaşı Kristofer Beddor deyib: "Bu ilin əsas problemi ölkə rəhbərliyinin yüksək səviyyədə məmurlara iqtisadi inkişaf və milli təhlükəsizlik arasında tarazlıq yaratmaq üçün qeyri-müəyyən göstərişlər verməsidir.

Lakin rusiyalı ekspertlər vəziyyəti fərqli qiymətləndirirlər. "Qərb mediasındakı anti-Çin kampaniyası Pekini potensial investorların gözündə nüfuzdan salmaq məqsədi daşıyır. Çində söhbət böhrandan deyil, görünən və aradan qaldırılan disbalansdan gedir", - Moskva Dövlət Universitetinin Asiya və Afrika Ölkələri İnstitutunun direktoru Aleksey Maslov deyir.




Beləliklə, dünyanın bir-birinə zidd iki qütbü bütün imkanları ilə yerdə qalan pay uğrunda qanlı döyüş aparırlar. Bu dəfəki müharibə həm də daha dəhşətlidir, həm də dünyaların savaşını tezləşdirir.

**V.SALAH**

***P.S. Məqalədə xarici mənbələrə istinadlar var.***

# Məramı aydın və bənzərsiz xanım

**"Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxından dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısanbax budur bizim həyatımız. Ona görə də özgələrinin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki, sən də, dünyada yerin də yeganə və bənzərsizdir."**

**Mehriban Əliyeva**



26 avqust - Azərbaycan Respublikasının Birinci vitse - prezidenti Mehriban xanım Əliyevanın ad günüdür. Bu gün onun haqqında - qazandığı etibar, məhəbbət, ləyaqət, mərhəmət, xeyirxahlıq və vətənpərvərlikdən çox danışmaq olar. Azərbaycan xalqının və dövlətinin maraqları əsasında həm ölkə, həm də dünya miqyasında mədəniyyət, təhsil, xeyriyyəçilik, idman və digər sahələrdə çoxşaxəli, uğurlu fəaliyyət, xalqımızın və dünya irsinin qorunması, təbliği və inkişafı istiqamətində görülən işlər yüksək səviyyəsi ilə həmişə böyük ehtiramla qarşılanır. Cəmiyyətdə layiqli dövlət adamı kimi Şərqlə Qərbin sintezində ali dəyərlər həcmində möhtəşəm layihələrlə xalqını sevindirən Mehriban Əliyeva fəaliyyətində kimsəsiz uşaqlara, şəhid ailələri və qazilərə, xəstə insanlara, illərdir məcburi köçkün həyatı yaşayan insanlara zamanını və köməyini təmənnasız sərf edir. Azərbaycanın Birinci vitse - prezidenti təyin edildikdən sonra ilk müşavirəsini məhz məcburi köçkünlərin sosial qayğısına, onların problemlərinin həlli ilə bağlı məsələlərə həsr etməsi bir milyon insan tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmışdır. Konkret işlərdə böyük qayğı və diqqət hiss edən insanlar Mehriban xanım Əliyevaya böyük inam, məhəbbət bəsləyirlər. Mehriban xanımın dövlətin möhkəmlənməsi yolunda apardığı ideoloji mübarizədə keçmişin, gələcəyin hər dönəmində tarixin səhifələrinə, görkəmli insanların, böyük şəxsiyyətlərin həyat fəaliyyətlərinə nəzər salınır, mütərəqqi ideyalar təbliğ olunur, yaddan çıxmış, unudulmuş tarixin üzə çıxarılması və qorunması yolunda rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı, möhtəşəm layihələr həyata keçirilir. Milli-bəşəri ideyaların tərənnümçüsü, daşıyıcısı rolunu uğurla icra edən, qüdrətli ictimai təşkilat olan Fond Ümummilli lider Heydər Əliyev irsinin yeni nəslə öyrədilməsi, təbliğ olunmasında böyük nailiyyətləri ilə aparıcı rol oynayır. Qədim ənənələrimizlə bağlı multikultural dəyərlər, tolerantlıq Mehriban xanım Əliyevanın fəaliyyətində fədakarlıqla nümayiş olunur. Bu gün ictimai - siyasi həyatımızın elə bir sahəsi yoxdur ki, Mehriban xanımın nəzərindən kənarda qalsın. Baxış bucağımızda Mehriban Əliyevanın mükəmməl obrazı artıq öz yerini tutub. Gördüyü işlərin həcmi olduqca müxtəlif məzmunlu, insan amili üçün zəruri, dövlətimiz üçün vacib şərtlərdir.

Mehriban xanım qalib ölkənin qalib sərkərdəsi, Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ömür-gün, həyat yoldaşı olmaqla bərabər, onun məslək, qayə yoldaşı, həyat yolunu birlikdə addımlayan sədaqətli silahdaşıdır.

Mehriban xanım Qarabağ torpağının erməni işğalından azad olunması yolunda 44 günlük Qələbə soraqlı müharibə günlərində xalqımızla birlikdə hər günün Qələbə sevincini, hər həlak olan şəhidə kədərini bildirdi, qazilərə mərhəmətini, ana-bacılardan təsəllisini əsirgəmədi. "Sizin Mehriban" imzası ilə sosial şəbəkələrdə xalq ilə birlikdə müharibənin gedişini böyük həyəcan ilə izlədi, sakit, səmimi sözləri ilə məlhəm oldu itkisi olan ailələrə. Şuşa işğaldan azad edilən gün Ali Baş Komandan, Qalib Sərkərdə, Prezident cənab İlham Əliyevlə Ulu Öndər Heydər Əliyevin məzarını, Şəhidlər Xiyabanını ziyarət etdi. 30 ildən sonra may ayında "Xarı Bülbül" musiqi festivalına rəhbərlik etdi, "Qarabağ Şikəstəsi"ni "Cıdır Düzü"ndə dinlədi. 2019 - cu ildə məcburi köçkünlərlə Heydər Əliyev Mərkəzində ad gününü keçirərkən "Ən böyük arzum "Qarabağ Şikəstəsi"ni Qarabağda dinləməkdir!" - söyləmişdir. Həmin ad günündə "Şuşanın qala divarları" adlı şuşalı bir rəssamın kətan üzərində yağlı boya ilə çəkdiyi rəsm əsərini hədiyyə edərkən Mehriban xanıma ürəkdən arzu etdim ki, o gün olsun ki, Prezident İlham Əliyevlə bu qalalardan keçib Şuşada Qələbə bayramlarını qeyd edək. Bu gün, o gündür! Bu dünyada yeriniz isə yeganə və bənzərsizdir.









Məramı, sevgisi, qayğısı aydın Mehriban xanımın Mədəniyyət Mərkəzi, abidələr şəhəri Şuşa üçün böyük arzuları bir - bir həyata keçir. Bir ömür boyu həyatınızı xoşbəxtliklərlə və sağlıqlarla yaşayın. Sizi şuşalılar adından təbrik edir, məsuliyyətli və şərəfli fəaliyyətinizdə uğurlar arzu edirik.

Ad gününüz mübarək!

***Vüsalə Fətəliyeva***

# Bəşəriyyət erməni vəhşiliyinə etiraz edir

Reallıqları bir daha nəzərdən keçirmək üçün tarixə diqqət yetirsək məlum olar ki, əcdadlarımızın da erməni vəhşi toplumunun aramıza sızmasında bu və digər formada dəstəyi olduğunu görmək olar. Yəni, bəzən öz qılıncımız özümüzü kəsməsinə şərait yaratmışıq. 1434-cü il də Qaraqoyunlu hökmdarının Azərbaycanın Qərb əyalətləri üzrə əmiri Rüstəmdən erməni Qriqori Makuli 7 kənd alıb. Hazırkı Eçmiədzin əyaləti də alınan kəndlər siyahısında olub. Bizim faciəmizin kökü məhz o dövrdən qoyulub desək, səhv etmərik. Xaricdən hərbi, siyasi dəstək alan və müxtəlif ərazilərdən köçürülmələr qəbul etməklə ermənilər torpaqlarının sərhədlərini genişləndiriblər. Rusiyanın ermənilərdən alət kimi istifadə etmələri isə erməni terrorçu millətin işinə yaramışdır. Xüsusilə də, XVII əsrin əvvəllərində Səfəvi şahı II Təhmasibin yanında nökərçilik edən Zaxar adlı ermənin hesabına ermənilər Rusiya ilə əlaqələrini genişləndirmişlər. Məhz Zaxar gizli formada ermənilərin Rusiya ilə əlaqələr qurmasına nail olub. Hətta Rusiyaya daha yaxın olmaq üçün hədiyyə olaraq ikinci Şah Təhmasibə verilən Osmanlı imperatorunun kürsüsünü və qamçısını oğurlayaraq birinci Pyotrun atası Rus çarı I Alekseyə bağışlayıblar. Hazırda həmin kürsü Moskvada almaz fondunda saxlanılır. Dünyada ən dəyərli kürsülərdən hesab olunur. Bu kürsü almaz və brilyantla bəzədilib. İstər o dövrün, istərsə də indiki beynəlxalq qanunlara görə, oğurluq əmlakı qəbul edən və ya alan oğru qədər məsuliyyət daşıyır. Ermənilərin oğurlayaraq I Pyotra verdikləri qızıl kürsü də oğurluq olduğu üçün hər iki tərəf məsuliyyət daşıyır. Bu mənada, Türkiyə hökuməti ən azı oğurluq əmlakının geri qaytarılması üçün beynəlxalq məhkəməyə müraciət etsə, bu, gec də olsa haqqın bərpası kimi dəyərləndirilə bilər. Eyni zamanda, dünya birliyinin bir daha ermənilərin özgəsinin əmlakına göz dikmək ənənəsinin tarixi kökləri olduğunu görmüş olarlar.

### Oğurluq əmlakı qəbul etdikdən sonra rus çarı ermənilərin bir xristian kimi himayə olunması haqqında fərman imzalayıb

Ermənilərin oğurluq əmlakı rus çarı I Alekseyə verilməsindən sonra onlar üçün Qafqazda yaşıl işıq yandırılmışdır. I Aleksey ilk dəfə olaraq ermənilərin bir xristian kimi himayə olunması haqqında fərman imzalayıb. Adıçəkilən fərman ermənilərin qorunması məsələsini gündəmə gətirir. XIX əsrin əvvəllərindən başlayaraq Rusiya imperiyası tarixən Azərbaycan ərazisi olan Dərbənd, Borçalı, Gəncə, Şəki, Şirvan, Lənkəran, Qarabağ, İrəvan və Naxçıvan bölgələrini işğal etməyə başlamışdır. Bu, azmış kimi, Osmanlı İmperiyasına olan nifrətini gizlədə bilməyən Çar Rusiyası daha məkrli planı həyata keçirməyə başlamışdır. I Pyotr 1723-cü ildə Bakını işğal etdikdən sonra orada və Dərbənd şəhərində erməniləri yerləşdirməyə başladı. 1768-ci ildə II Yekatrina ermənilərin qorunma altına alınması haqqında fərman imzaladı. 1801-ci ildən müasir Azərbaycan əraziləri işğal olunmağa başlayır. Qərbi Azərbaycandan azəri türklərinin ilk deportasiyası 1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra baş vermişdir. Belə ki, Şəmşədil və Lor Pəmbək əyalətlərinin rusların əlinə keçdikdən sonra yerli əhali oranı zor gücünə tərk etməyə məcbur edilmişdir. Bunu 13 iyul 1801-ci ildə erməni əsilli general Lazarevin Qafqaz ordusu komandanı Knorrinqə göndərdiyi raportda da öz əksini tapmışdır: "Pəmbək əyalətinin 14 kəndinin 5-6 min nəfərə qədər əhalisi İrəvan xanlığının ərazisində özlərinə sığınacaq tapmışdır". 1802-ci ildə çar I Aleksandr öz məktubunda Azərbaycan türklərinin qənimi olan N.Sisiyanova yazırdı: "Nəyin bahasına olursa-olsun Azərbaycanın bu və ya digər xanlıqlarında ermənilərdən istifadə olunmalıdır". 1804-cü ildə İrəvan xanlığından qaçan və Rusiya təəbəliyini qəbul edən 2 minə qədər haylar həmin boşaldılan kəndlərə yerləşdirilmişdir. Elə həmin il rus ordusu Qarapapaqların yaşadığı Şörəyel mahalını işğal edirlər. 1807-ci il rus-türk müharibəsindən sonra onlar İrəvan xanlığının və Qars paşalığının ərazisinə köçmək məcburiyyətində qalırlar. 1805-ci ildə (XIX əsr) Qarabağ xanlığı ilə Rusiya arasında müqavilə bağlanılıb. Həmin müqavilə əsasında Qarabağ xanlığı Rusiyaya tabe olur. Məhz bundan sonra 1804-cü ildə Gəncə, 1806-ci ildə Bakı, 1809-cu ildə Lənkəran Rusiya tərəfindən işğal olundu. Ən gec işğal olunan ərazilər İrəvanla Naxçıvan olmuşdur. Rusiya 1826-cı ilə qədər bu əraziləri tam işğal edə bilməmişdir.




### İrəvan tarixi Azərbaycan şəhəridir

XIX əsrin əvvəllərində İrəvan xanlığı 15 mahaldan ibarət idi: Qırxbulaq, Zəngibasar, Qarnibasar, Vedibasar, Şərur, Sürməli-Dərəkənd, Parçanis, Saatlı, Talın, Seyidli-Ağsaqqallı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə. Ruslar 1804-1813-cü illər ərzində İrəvan şəhərini tutmağa iki dəfə cəhd etsələr də, cəhdləri boşa çıxmışdır. Rus ordusu yalnız 1827-ci ilin 26 iyununda Naxçıvanı, 20 sentyabrında Sərdarabadı, 1 oktyabrda isə İrəvan qalasını tuta bildilər. İrəvan qalasının tutulması zamanı başda Eçmiadzin arxiyepiskopu Nerses olmaqla, ermənilər satqınlıqla məşğul olmuşdular. İrəvan işğal olunan zaman ətraf kəndlərdə yaşayanlar oranı məcburi şəkildə tərk etməli olmuşlar. Bu fakt qraf Paskeviçin 27 iyul 1827-ci ildə qraf Nesselroda göndərdiyi məktubunda da öz əksini tapmışdır: "Qarapapaqlardan 100 ailə və ayrımlardan 300 ailə Qarsa, tanınmış Uluxanlı tayfasından 600 ailə Bəyazidə, müsəlman kürdləri-səlallılar Muşa köçmüşlər. Qarapapaqlılardan digər 800 ailə Arazı keçərək İrəvan xanı Hüseyn xanın qardaşı Həsən xanın dəstəsinə qoşulmuşlar. 700 ailə kürdcamədənlilər, 400 ailə birukinlilər, 400 ailə dovşanlılar, 200 ailə çobankerinlilər, 1000 ailə zilani-kürdləri də onlarla birlikdə Türkiyəyə keçmişlər". 10 fevral 1828-ci il də imzalanan "Türkmənçay" müqaviəsindən və 21 mart 1828-ci ildə imperator I Nikolayın fərmanı ilə əzəli Azərbaycan torpaqları olan Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarının ərazisində "erməni vilayəti" yaradıldı ki, onun da 9700 əhalisinin 7331-i azəri türkləri idi. "Türkmənçay" müqaviləsinin XV bəndinə uyğun olaraq 1828-1830-cu illər ərzində İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə İrandan 40 min, Türkiyədən isə 84600 erməni köçürüldü.

Hərbi müdaxilə zamanı yüzlərlə kənd boşaldıldı və minlərlə insan qətl edildi. Bütün bu soyqırımı siyasətinə baxmayaraq, rus imperiyasının apardığı siyahıya almaya əsasən, 1897-ci ildə İrəvan quberniyasında 313 178 azəri türkü yaşayırdı. Erməni tarixçilərinin bəzi əsərlərində tarixi hadisələr, faktlar "böyük Ermənistan" ideyası naminə birtərəfli qaydada təhrif olunur. Guya "böyük Ermənistan" adlı mif yüz illər boyu Xəzər dənizindən Qara dənizədək olan sahəni əhatə edirmiş.

### O zamandan Qarabağ Azərbaycandır!

Azərbaycanın Kiçik Qafqaz dağlarının cənub-şərq ətəklərindən başlayaraq Kür və Araz çayları arasındakı ərazisini əhatə edən tarixi Qarabağ vilayəti qədim dövrlərdə və erkən orta əsrlərdə Qafqaz Albaniyasının tərkibində olmuşdur. Artsax adlanan yer Albaniyanın əyaləti olmuş, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri tərkibində Qarabağ adlanmışdır. Albaniyanın Artsax vilayəti 12 kiçik inzibati ərazi vahidindən ibarət olmuşdur. 14 may 1805-ci il tarixdə "Kürəkçay" sülh müqaviləsinə görə Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçmiş, 1822-ci ildə isə rəsmi olaraq ləğv edilib Qarabağ əyalətinə çevrilmişdir. 1840-cı il islahatı ilə Qarabağ əyaləti ləğv olunaraq əvəzində Şuşa qəzası yaradılmış, qəza əvvəl Kaspi vilayətinin, 1868-ci ildən isə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində olmuşdur. XIX əsrin 20-ci illərində Yermolovun tələbi və təkidi ilə keçirilən siyahıyaalmada Qarabağ regionunda yaşayan 18.563 ailədən yalnız 1559-u (cəmi 18 %-i) erməni, 80 faizi isə azərbaycanlı ailələri, qalan 2 faizi isə digər millətlər olmuşdur. Bundan bir neçə il sonra (1832-ci il) aparılan kameral sayıma görə, İran və Türkiyədən köçürülən erməni abidələrinin hesabına Qarabağda ermənilərin sayı xeyli artmışdır. XIX əsrin 20-30- cu illərində Zaqafqaziyaya o cümlədən, Qarabağa 200.000 erməni köçürülür. (N.İ.Şavrov: Novaya uqroza russkom u delu v Zaqafkazye; predstoyaşaya rasprodaja Muqani i narodtsam. SP-b.1911, s.59). İlk dəfə olaraq, rus ordusu indiki Ermənistan ərazisindən-14 kənddən azərbaycanlıları deportasiya etdilər. Yəni, azərbaycanlıların deportasiya olunmasının tarixi 200 il əvvələ gedib çıxır. Azərbaycanlıların deportasiya olunduğu həmin ərazilərə ermənilərin köçürülməsi həyata keçirilib. Rusiya ilə indiki fars-molla rejimi arasında gedən 1804- 1813 və 1826- 1828-ci illər müharibəsindən sonra imzalanan "Gülüstan" (1813-cü il 12 oktyabr) və "Türkmənçay" (1828-ci il 10 fevral) müqavilələri ilə Azərbaycan Rusiya və indiki fars-molla rejiminin məkrli işğalçılıq siyasətinin acı nəticəsi olaraq faciələr dolu həyat yaşamağa məhkum edildi. Azərbaycan xalqı iki yerə bölündü və Azərbaycanın şimalı Rusiyanın, cənubu isə Qacar dövlətinin (1936-cı ildən bu dövlət İran adlandırıldı-İ.Ə.) idarəçiliyinə keçmiş oldu. Diqqətçəkən müdhiş məqam ondan ibarətdir ki, Rusiya çarı 1-ci Nikolay 21 mart 1828-ci ildə Naxçıvan və İrəvan ərazisində erməni məhəllələrinin yaradılması haqqında 16 maddədən ibarət olan qərar qəbul etdi. Eyni zamanda, Türkmənçay müqaviləsinin 15-ci bəndinə əsasən, ermənilərin qonşu dövlətlərin ərazisindən Naxçıvan, İrəvan və Qarabağa köçürülməsi prosesi həyata keçirilməyə başladı. Bunun da nəticəsində azərbaycanlılar öz vətənlərində, doğma yurdlarında sıxışdırılmağa başlamışlar.

### Biz bizə aid olanlara sahib olacağıq

Rusiya ilə Turkiyə arasında 1828-1829, 1877- 1878 müharibələrinin sonlarında da ermənilərin Türkiyədən Azərbaycan ərazilərinə köçürülməsi siyasəti həyata keçirildi. Ümumilikdə, 1829- 1830-cu illərdə indiki fars-molla rejiminin nəzarət etdiyi qədim Azərbaycan torpaqlarından 40 min, Türkiyədən isə 84 min 600 erməni Azərbaycanın müxtəlif ərazilərində yerləşdirilmişdir. 1905-1907-ci illərdə Rusiyada baş verən qarışıqlıqlardan istifadə edərək, planlı şəkildə Bakı, Şuşa, Zəngəzur, İrəvan, Naxçıvan, Qazax, Ordubad, Eçmiadzin və Cavanşir bölgələrində ermənilər və onların havadarlarının törətdiyi qırğınlar nəticəsində yüz minlərlə azərbaycanlı, gürcü, kürd, yəhudi, ləzgi və digər xalqların nümayəndələri məhv edilmişdir. İrəvan və Gəncə quberniyalarının 200 kəndi, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının 75 kəndi dağıdılmış, əhalisi isə deportasiya edilmişdir. 1905- 1907-ci il hadisələrindən sonra azəri türklərinə qarşı repressiya gizli formada həyata keçirilmişdir. Bunu ozamankı statistik məlumatlar da təsdiq edir. Belə ki, əgər İrəvan quberniyasının 5 qəzasında ümumi əhali 1916-cı ildə 1831-ci illə müqayisədə 40 dəfə artmışdırsa, həmin müddət ərzində azəri türklərinin sayı cəmi 4,6 dəfə artmışdır.

Bu tükürpədici rəqəmlər erməni şovinistlərinin Rusiya imperiyasının himayəsi altında həyata keçirdikləri "türksüz Ermənistan" planını açıb göstərir. 8 avqust 1905-ci il - Şuşada Cənubi Azərbaycandan olan 17 nəfər azərbaycanlı fəhlə erməni silahlıları tərəfindən vəhşicəsinə qətlə yetirilir. Həmin gün Vəng kəndinin 300-dən çox silahlı erməni sakini quldurcasına yaxınlıqdan keçən azərbaycanlı karvanına basqın edirlər; tacirlər öldürülür, əmlakları talanır. Sonra ermənilər qonşu müsəlman kəndinə basqın edərək, burada kənd sakini Abbas bəyi, onun oğlunu, qardaşını və bir neçə nökər-naibini amansızlıqla öldürürlər. Az sonra kəndin bütün sakinləri erməni yaraqlıları tərəfindən qəddarcasına öldürülür, onların evləri isə yandırılır. Ermənilərin başladıqları Şuşa qırğını 10 gündən çox davam edir. 15 avqust 1906-cı il - Son bir həftə ərzində müsəlmanların yaşadıqları Oxçu, Şəbədək, Xələc, Qatar, Karxana, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Moltalar, Batuman, Atqız, Pirdavud, Zutul, Güman, İyilti, Sənalı, Minənəvur, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq və digər kəndlər erməni quldur birləşmələri tərəfindən dağıdılıb talan edilir. Erməni qətliamları və xaricdən hayların Azərbaycan torpaqlarına köçürülməsi prosesi sonrakı illərdə də davam etmişdir. Nəticədə Azərbaycanın tarixi torpaqlarında oyuncaq erməni dövləti yaradıldı. Bu baxımdan, tam əsasla və sənədlərlə qeyd etmək olar ki, indiki Ermənistan bizə məxsusdur. Biz o yerlərə mütləq yenidən qayıdacağıq. Biz bizə aid olanlara sahib olacağıq. Necə ki, 30 il erməni işğalı altında olan Qarabağ və ətraf ərazilər Yenilməz Sərkərdə, Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz tərəfindən azad edildi.

**İ.ƏLİYEV**

# Nağıllarla, miflərlə yaşayanların
# QƏFLƏT YUXUSU

**Erməni cəmiyyəti, erməni toplumu öz düşüncəsini də, baxışlarını da, ümumilikdə, yaşayışını da dəyişməlidir və ermənilər bilməlidirlər ki, nağılların təsiri altında, miflərdən asılı vəziyyətdə yaşamaq onlar üçün yaxşı heç nə vəd etmir. Əgər bundan əvvəl, məsələn, ötən əsrin sonları ilə bağlı hansısa nostaljiyə bənzər hissləri qalıbsa, hansısa qələbə əhval-ruhiyyəsini arzulayırlarsa, bu, onlara nəinki qələbə gətirər, məğlubiyyətdən də ağır başa gələr, tamamilə fəlakətə sürükləyər. Çünki ötən əsrin 90-cı illərinin əvvəllərində ermənilərin qələbə adlandırdıqları, əslində isə, namərdcəsinə hücumla işğal strategiyası artıq işə yaramaz və bu, onlar üçün çox ağır nəticələrə gətirib çıxarar.**



Ötən əsrin sonlarında hər şey fərqli idi və Azərbaycan xalqının təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından, sonra da Ümummilli Liderin layiqli davamçısı cənab Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən, hər bir istiqamətdə, xüsusən də, hərbi sahədə apardığı islahatlardan, qətiyyətli siyasət yürütməsindən sonra vəziyyət tamamilə dəyişdi və daha fərqli bir düzən ortaya çıxdı. Məhz Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi, xalqımızın birliyi, həmrəyliyi, Azərbaycan Ordusunun rəşadəti ilə işğala da son qoyuldu, özləri başa düşsələr, elə erməni xülyalarına da. Artıq haylar hansı vəziyyətdə olduqlarını görməlidirlər. Həm müharibədə qarşılaşdıqları rüsvayçı məğlubiyyətlərini, həm itkilərini, həm durumlarını, həm səfalət içərisində olmalarını, həm beynəlxalq müstəvidə hansı yerə qoyulduqlarını görüb nəticə çıxarmalıdırlar. Nəticə çıxarmalıdırlar ki, bu vaxta qədər etdikləri bir yana, bundan sonra ixtiyari bir səhv addım sonlarını vəd edə bilər.






Az qala üç ilə yaxındır ki, erməni cəmiyyəti nəinki müharibədə rüsvayçı məğlubiyyətini, heç böyük qardaşlarının onlara kömək etmədiyini də həzm edə bilmirlər. Dəfələrlə Ermənistanda bununla bağlı etirazlar, narazılıqlar olduğu, erməni mətbuatının belə durmadan rusları qınaması, onlara müharibədə niyə kömək etmədiyi barədə yazılar getdiyi, hələ də bu tipli yazıların dərc olunması təsdiq edir ki, ermənilər ruslardan "böyük qardaş" köməyi almadıqlarına görə onlardan çox narazıdırlar. Amma narazı olmaqdansa, reallığı görmək, dərk etmək daha yaxşı olardı. Yaxşı olardı ermənilər başa düşsünlər ki, ruslar onlara borclu deyillər və heç də onların yerinə ötən əsrin sonlarındakı kimi vuruşan, döyüşən deyillər. O zaman Rusiya da tamamilə fərqli vəziyyətdə və fərqli yanaşmada idi ermənilərə. Tutaq ki, bir vaxtlar Rusiyada içki alüdəçisi olan Boris Yeltsinin hakimiyyətdə olduğu zaman, onunla Levon Ter-Petrosyan "ortaq dil" tapa bilmişdisə, bu, o demək deyil ki, hazırkı Rusiya Prezidenti Vladimir Putinin boynuna dırnaqarası tarixi, müttəfiqlik öhdəliklərini tam şəkildə qoymağa və onu aldatmağa çalışan baş nazir Nikol Paşinyan da bunu bacara bilərdi, yaxud bunu etməli idi. Onsuz da ermənilərin elə 44 günlük müharibədə ən ağır vəziyyətlərində Paşinyan birbaşa Rusiyaya, şəxsən Vladimir Putinə yalvarışla müraciət etməsi dünya ictimaiyyəti üçün belə sirr deyil və elə sonda ermənilərin daha böyük fəlakətlərdən qurtarmaları da, məhz Rusiya prezidentinin işə qarışaraq, danışıqlar aparması sayəsində oldu və heç olmasa bunu unutmasınlar. Amma onu da unutmasınlar ki, Rusiya lideri Putinin Azərbaycan prezidenti cənab İlham Əliyevlə çox yaxşı münasibətləri var və bu münasibətləri hansısa erməni liderinə olan münasibətlə müqaisə belə etmək olmaz.

Gec də olsa ermənilər anlamalıdırlar ki, ötən əsrin sonlarındakı vəziyyətlə hazırki vəziyyət müqaisəyə gəlməz dərəcədə fərqlidir və həmin dövrdə hansısa quldur dəstələri, hansısa terroristlər, separatçılar nəyə isə nail olublarsa, bu, o demək deyil ki, günümüzün reallıqları fonunda ağıllarından keçirdikləri, arzuladıqları mümkündür, xeyr. Bir zamanlar Azərbaycanda xaos, anarxiya hökm sürdüyü zaman bundan namərdcəsinə istifadə edən ermənilər indi özləri üçün belə bir dırnaqarası münbit şərait tapa bilməzlər axı. İndi ermənilərlə üz-üzə nə ozamankı idarəçilikdən xəbərsiz, torpaqlarının taleyi ilə maraqlanmadan hakimiyyət davası aparan hakimiyyət var, nə də ölkəmizdə xaos, qarışıqlıq yoxdur ki, bu, erməni namərdlərinin işinə yarasın. İndi ölkəmiz Azərbaycana, dünyada öz siyasi savadı, dünyagörüşü, bacarığı, siyasi iradəsi ilə fərqlənən bir siyasi lider, cənab İlham Əliyev kimi qətiyyətli bir Prezident rəhbərlik edir və ermənilərin cəfəng xəyallarına artıq yer belə yoxdur. İstənilən platformada keçirilən diplomatik görüşlər zamanı da görünür ki, Azərbaycan Prezidenti erməni baş naziri Nikol Paşinyandan qat-qat üstündür. Görünür ki, iki ölkənin rəhbərini müqayisə belə etmək olmaz və Paşinyan hər dəfə, hər zaman, hər bir diplomatik görüşdə Ali Baş Komandan cənab İlham Əliyevin qarşısında son dərəcə büzüşür, çarəsiz duruma düşür.

Hansısa demokratiyadan dəm vuran, bunu da başqalarının gözünə soxmaq istəyən ermənilər bilirlər, bilməyənlər də bilsinlər ki, ölkələrində hansısa demokratiyadan danışmaq olmaz və demokratiya deyilən Ermənistanda yoxdur. Digər tərəfdən də anlamalıdırlar ki, elə demokratiya oyunu ilə erməniləri Qərb barmağına sarıyıb və gözlərinə də kül üfürməklə məşğuldur. Rüsvayçı şəkildə məğlub, səfalət içərisində olan bir ölkəyə hələ də demokratiya nağılı oxunması kimə lazımdır? Ermənilər dərk etmirlərmi ki, yediklərini, içdiklərini, yaşamaq üçün vacib olan gündəlik qaçılmaz məhsulları, eləcə də yaşayışlarını demokratiya ilə doldurmaq olmur? Görmürlərmi ki, nə qədər pafosla danışsa belə, hər dəfə istənilən ictimai müzakirə Azərbaycan liderinin xeyrinə başa çatır? Görmürləmi ki, Azərbaycanın qüdrətli, güclü, yaxşı maliyyələşən ordusu var və heç də bir vaxtlar təsəvvür etdiləri kimi deyil? Bunu dərk etməyən, görməyən hansısa erməni həqiqətən yuxuda ola bilər, qəflət yuxusunda.

Miflərlə yaşamaq istəyi Ermənistanı faciəyə gətirib çıxardı. Bütün bu faciələrin fonunda isə hələ də kimlərinsə revanşizmdən dəm vurması, yeni müharibə barədə danışması çox təəccüblüdür və gülünc görünür. Çünki günü-gündən güclənən Azərbaycan Ordusunun qarşısında durmadan parçalanan, zəifləyən erməni silahlı dəstələrinin davam gətirməyəcəyi gün kimi aydındır. Azərbaycanın çox böyük qüdrət sahibi olduğunu gözardı etmək axmaqlıqdan başqa bir şey deyil. Ölkəmizin bütün dünyada söz sahibi olması, haqlı mövqedə olması, haqq və hüquqlara sahib olması erməni cəmiyyətini qəflət yuxusundan gec də olsa ayıltmalı idi. Bəli, nağıllarla, miflərlə yaşayan ermənilər hələ də qəflət yuxusundadırlar. Bu yuxudan nə qədər tez oyansalar, o qədər də tez görərlər, başa düşərlər ki, ölkələri Ermənistan bütün proseslərin kənarındadır və bütün regional layihələrdən məhrum olublar. Başa düşərlər ki, nağıllarla yaşamaqla, miflərə istinad etməklə vəziyyəti dəyişmək mümkün deyil. Mifləşdirdikləri hansısa erməni nə gəlib Ermənistanın düşdüyü vəziyyəti, nə də ermənilərin baxışlarını dəyişən deyil. Bunu özləri etməlidirlər. Reallıqları görərək, qəbul edərək etməlidirlər və qəflət yuxusundan ayılaraq, regiondakı yeni durumu başa düşərək, dərk edərək nağıllarla, miflərlə deyil, reallıqlarla yaşamalıdırlar, qonşu dövlətlərlə normal münasibətlər qurmalıdırlar, sülh şəraitində yaşamalıdırlar ki, həm normal yaşayışları təmin olunsun, həm də iqtisadi baxımdan da ölkələrinin vəziyyətinin yaxşılaşacağına heç olmasa, ümid edə bilsinlər. Əks halda, bu yuxu, yəni, qəflət yuxusu onlara daha ağır nəticələr vəd edir.

***İnam Hacıyev***

II YAZI

# "Pulun var?"... alaram





Bundan əvvəlki yazımda "Pulun var, gələrəm" demişdik. Bəzi qızlarımızın pullu, maşını, evi olan oğlanlar axtarmasından bəhs etmişdik. Onları qınamışdıq, ötən illərin sağlam dəyərlər üzərində qurulan ailələrini onlara misal çəkmişdik. Kirayələrdə səadət içərisində yaşayan, hər ikisi işləyərək sonrakı illərdə özlərinə mənzil də, maşın da alan ailələrdən söhbət açmışdıq.

Pulun heç də hər zaman məsələnin həlli olmadığını da vurğulayaraq bəzən səadəti alt-üst etdiyini qeyd etmişdik. Bütün bunların fonunda isə qızlarımızı qarşılıqlı sevgi, sayğı və hörmət hissləri əsasında ailə qurmağa çağırmış, qalan məsələlərin zaman-zaman həll olunacağına şübhə etməmələrini tövsiyə etmişdik.

Bugünkü mövzumuz isə müasir dövrümüzdə həm də bəzi oğlanların varlı-pullu kişilərin qızlarını axtarması, onlarla ailə qurmağa cəhd etməsi barədədir. Deməli, ortaya qoyduğumuz məsələ tək qızlarımıza deyil, həm də oğlanlara aid imiş. Belə isə söhbətimizə başlayaq.

## Necə oldu ki...

Həqiqətən də dərindən fikirləşəndə adam ürək ağrısı keçirir. Necə oldu ki, biz bu düşüncələrə qərq olduq? Necə oldu ki, əsl kişiliyin yerini, zəhmətlə çalışıb ailə dolandıranların yerini, gecə-gündüz işləyib heç kimin qarşısında əyilməyən oğlanların yerini belə cılız düşüncəyə sahib gənclər alır? Adam bunları fikirləşdikcə heyrət etməyə bilmir.

Hara gedir cəmiyyətimiz? Axı bütün bunlar bizim xalqa məxsus olmayan fikirlərdir. Bəs biz hazırda kimə oxşayırıq? Hanı o ailə dəyərlərimiz ki, təməlində ülvi hisslər dayanırdı. Hanı o gənclər ki, bir-birini böyük məhəbbətlə sevirdi, onları heç bir qüvvə bir-birindən ayıra bilməzdi. Hanı o illər ki, ailə quran cütlüyün ağlına harada yaşayacaqları, nə yeyib-içəcəkləri belə gəlmirdi onlar yalnız bir-birilərinə olan sevgini düşünürdülər.

İndi eşidirsən ki, bəzi oğlanlar da maddi imkanı yaxşı olan ailənin qızı ilə evlənmək istəyir ki, necə deyərlər, yağ-bal içərisində yaşasın. Həm də bunu gizli şəkildə, ürəklərində düşünmürlər, sosial şəbəkələrdə elan edirlər ki, biz belə qız axtarırıq.

***

Bu yaxınlarda avtobusla uzaq bir yol gedirdim. Arxada iki gənc oğlanın söhbətində də elə bu məsələdən bəhs olunurdu. Deməli, bunların bir dostu dediyimiz kimi, imkanlı qız axtarırmış özünə. Bu fikrə gəlməzdən əvvəl isə anası xalası qızı ilə bunlara söz kəsibmiş. Oğlan da anasının sözündən çıxmayıb, razılıq verib. Lakin ürəyində maddi vəziyyəti yaxşı olan bir qızla evlənmək arzusu varmış. Günlərin bir günü belə bir qız çıxır qarşısına. İşlədiyi yerdə müdirinin qızı ilə rastlaşır. Və deyir ki, axtardığım elə bu imiş. Sonra tanış olurlar. Qız onu sevməyə başlayır. Atası əvvəl razı olmasa da, sonra qızının istəyinə qarşı çıxmaq istəmir. Beləliklə, razılaşırlar və oğlan öz xalası qızı ilə kəsilən sözü pozur və həmin qızla nişanlanır. Oğlanların söhbətinə görə dostları hələ evlənməyib. Lakin artıq orada çalışmır. Qayınatası olacaq adam onun iş yerini dəyişdirib. Hazırda oğlan yaxşı bir yerdə işləyir.

Anası ilə xalası isə bir-birinə düşmən kəsiliblər. Çünki hamının gözü qarşısında bacısı və oğlu onun qızının hissləri ilə oynayıb.

Təəssüf ediləcək hal ondan ibarətdir ki, tək qızlar, oğlanlar deyil, bəzi ailələr də var ki, oğlanlarına və qızlarına yetkinlik yaşına çatar-çatmaz elan edirlər ki, bax, bilməzsən kasıb-kusuba ürək verərsən ha. Biz səni imkanı olmayan adama verməyəcəyik və ya biz sənə imkanı olmayan ailədən qız almayacağıq, deyirlər. Beləliklə də övladlarının hissləri ilə oynayır, onları öz seçimləri qarşısında tərəddüdlə üz-üzə qoyurlar. Belə ailələr oğlan və ya qızlarından biri onların sözünün əksinə çıxıb istədiyi, sevdiyi adamla ailə qurmağa cəhd edirsə, onu bir dəfəlik silir, nə qapısını açır, nə də evlərinə gedir, maraqlanırlar.

Lakin onların sözü ilə oturub-duran övladları olur gözlərinin işığı. Onun üçün hər şey edirlər. Lakin onlar anlamırlar ki, pul da, var-dövlət də gəldi-gedərdir. Sevgi, sayğı və hörmət isə milyonlara bərabərdir.

## Tanıdığım iki ailə...

Yaxından tanıdığım iki ailənin övladlarının həyat hekayəsi yaddaşıma elə iz salıb ki, onları əsla unuda bilmirəm. Deməli, mən o ailələri tanıdığım kimi, onlar da bir-birilərini tanıyırdılar. Ailələrin hər birində bir qız, bir oğlan böyüyürdü. Həm də ailələrin biri maddi imkanı çox yaxşı olan, digəri isə orta vəziyyətdə idi. Bunların qızları həmyaşıd idilər. Məktəbi də bir oxudular, universiteti də. Gün o gün oldu ki, bunlar sevib-sevilməyə başladılar. İmkanlı ailə qızını kasıba verməməyi planlayıbmış. Ortabab ailə isə əsla bu barədə söhbət etmirdi. Günlərin birində məlum oldu ki, həmin orta səviyyədə yaşayan ailənin qızına elçi gəlib, sözünü veriblər. Bu zaman imkanlı ailənin qadını başladı qızın anasını danlamağa ki, onlar nə ailə idi, sən onlara qız verdin, o oğlan sənin qızına hansı həyatı yaşadacaq, görəcəksən.

Lakin qızın anası bu cür düşünmədiyi üçün deyirdi: Elə demə, sən Allah, taleyi yazan da, ruzi-bərəkəti verən də Allahdır. İnşallah yaxşı olar. Hər ikisi təhsillidir, əl-ələ verib, özlərinə yurd-yuva quracaqlar. Və bu söhbəti əsla qızına danışmadı.

Gün o gün oldu ki, imkanlı ailənin qızı gəlib anasına dedi ki, bəs mənim sevdiyim var, elçi gəlmək istəyirlər. Oğlan da tanıdığımız ailənin oğlu idi. Təhsil almış, mədəni oğlandı, lakin ailələri bunlar qədər imkanlı deyildi. Bunu eşidən ana az qaldı ki, dəli olsun: ay qız, sən nə danışırsan? Atanın qarşısına "H" kişini gətirəcəksən? Heç gör, onlar bizim ailəyə uyğun adamdırlar? Atan bunu bilər, səni biryolluq silər. Bir daş altdan, bir daş üstdən, bu məsələni bağla, at bir kənara. Ondan sənə ər çıxmaz.

Qız da beləliklə, anasının sözünə qulaq asdı və oğlana ailəsinin razı olmadığını bildirdi. Gənclərin hər ikisi çox acı çəkdilər ayrılanadək. Lakin ana onları ayırdı. Aradan bir az vaxt keçmişdi. Eşitdik ki, qızı atasının dostunun oğlu ilə nişanlayıblar. Onların da ailəsi bunlar kimi imkanlıdır.

Nə isə, qızların toyları iki həftə aralığı ilə oldu, hərəsi öz yuvasına köçdü. Aradan 2-3 il keçməmişdi belə, görün, nələr oldu? Eşitdik ki, həmin imkanlı ailənin qızı gəlib oturub atasıgildə. Ona görə ki, həyat yoldaşı gecə-gündüz evə gəlmir. Harada olur, kimlə birlikdədir, hesabat belə vermək fikrində deyil. Soruşulanda isə, "sənə nə var", "nəyin əskikdir ki?" cavabını verir və yenə də həyatına olduğu kimi davam edir. Bir qız övladları da olmuşdu. Qız atası evinə qayıtdı və bir daha dönmədi. Ailələri dağıldı.

Ortabab səviyyədə yaşayan ailənin qızı isə yoldaşı da işlədi, özü də, onların da bir qız övladları oldu. Sonra qız evdə uşağına qulluq etdi, işləmədi. Həyat yoldaşı isə qısa zamanda yaxşı bir işə düzəldi. İndi evləri də, maşınları da, hər cür imkanları da var. Həmin imkanlı ailənin qızını sevən, ananın təkidlə ayırdığı oğlan da bu oğlanla birlikdə işləyir. Onun da hər cür imkanı var...

Bax, bu, o qədər maraqlı bir həyat hekayəsidir ki, hər kəsin oxuyub bilməsini istədim. Çünki bəzən yanlış addımlarımız övladlarımızın bədbəxtliyi, sevgisiz-ruhsuz yaşaması ilə nəticələnir. Söz yox ki, bu kimi hadisələrlə yüzlərlə adam qarşılaşır. Hələ bundan da acınacaqlıları ilə... Düşünürəm ki, hər kəs də cəmiyyətin belə nümayəndələrinə eyni sualı verir: nə üçün biz belə olduq?..

## Hansı ki...

Bəli, hansı ki, bu gün maddi vəziyyəti çox yaxşı olan ailələrin əksəriyyətinin kirayələrdən başlayan bir həyatı olub. Əksəriyyət kimi, onlar da əmək haqqı ilə dolanıblar, bu ayın başından o ayın başınadək olmazın çətinlikləri ilə üzləşiblər. Lakin həyatlarının sonrakı mərhələlərində maddi vəziyyətləri yaxşılaşandan sonra o günləri dərhal unudur, sanki elə əvvəldən belə imişlər kimi həyata davam edirlər. Keçmişlərini unutduqları üçün də övladlarının həyatını məhv edirlər. Onların pulu, evi, maşını olmayan adamla ailə qurmasına qarşı çıxırlar. Düşüncələrinə görə xoşbəxt həyat məhz pulla, evlə, maşınla, yaxşı gəlirlə bağlıdır. Lakin belə deyil axı. Bəzən dəstə-dəstə pulumuz ola bilər, lakin onun tək manatı belə üzümüzü güldürməyi bacarmaz. Bəzən 250-300 kvadratmetr evimiz ola bilər, lakin 50-60 kvadratmetrlik evlərdəki səadəti o böyük evlərdə tapa bilmərik. Maşınımız ola bilər, lakin evdən işə, işdən evə qədər olan məsafəni piyada gəzintimizdə aldığımız zövqü o maşınla həyatımız boyu gəzməklə ala bilmərik.

Deməli, bu qənaətə gəlmək olar ki, pul səadət, ev xoşbəxtlik, maşın rahatlıq deyil. Pul o zaman səadət gətirir ki, bir-birini sevən, hörmət edən iki nəfər onu birgə xərcləyir. Ev o zaman xoşbəxtlik saçır ki, onun içərisində bir-birini sevən, bir-biri ilə yaşamaq istəyən iki nəfər olur. Maşın o zaman adama rahatlıq gətirir ki, onun içindəki insanla bir neçə kvadratlıq yer sənə təbiətin geniş qoynu kimi gəlir. Belə isə...

## Dünya malı dünyada qalır

Bu misalı tam mənası ilə anlamayanlar yüzlərlədir. Hələ bəzən "bu dünyada bir gün görməyək ki, dünya malı dünyada qalacaq",- deyənlərə də rast gəlirik. Lakin dərindən düşünəndə, bu, belədir. Adamlar var ki, neçə-neçə evi, maşını var. Pulu xərcləməyə yer tapa bilmir. Lakin iç dünyası boşdur. Heç bir maddi gəlir bu mənəvi dünyanın zənginləşməsinə xidmət edə bilmir. O evlərin heç biri bu sağalmaz yaranın əlacı ola bilmir. O maşınların heç biri onu maddi dünyadan mənəvi dünyaya çatdıra bilmir. Xərclədiyi pulla hər şey alır, sevgidən, səadətdən, xoşbəxtlikdən savayı...

Bəlkə onlarla belə adamlar var ətrafımızda. Hər birimiz onlara şahid olmuşuq. Lakin bu adamların tam əksi olanlar da var aramızda. Bir evi, bir maşını, bir işi var. Eyni zamanda gözəl ailəsi, övladları, sevdiyi qadın, kişi var yanında. Hara baxırsa, səadət yağır, sevinc əhatə edir onu. İşdən çıxan kimi 50-60 kvadratmetrlik evi onu maqnit kimi çəkir özünə. Çünki onu bu evdə sevdiyi, sayğı duyduğu insan gözləyir. Qazancı da ailəsinin tələbatını ödəyir. Çünki bu qazanca evdəki düzgün həyat tərzi yoldaşlıq edir. Bu qazanca ailədəki hörmət hissi bərəkət gətirir.

Belə ailələrin maşınlarının da içərisi səadətlə doludur. Çünki o maşın bu sevgi dolu ailəyə xidmət edir. Onları istədikləri yerə aparır, gətirir: səmimi, birgə, firavan şəkildə.

Deməli, "dünya malı dünyada qalır" deyənlər, heç də yanılmayıblar. Həqiqətən də insana qalan sevgi, hörmət və sayğıdır.

## Aldatmayaq, aldanmayaq...

Nə kimisə aldatmağa çalışaq, nə də kiməsə aldanmağa, əziz oxucular. Yüzlərlə aldanmışlar var aramızda, yüzlərlə də aldadan. Nə üçün bəzi oğlanlar imkanlı ailələrin qızları ilə evlənmək istəyirlər. Bunu dərindən düşünmüşükmü? Bunun arxasında hansı planların olduğunu anlamışıqmı? Axı kişi Koroğlu, Babək kimi əli qılınclı olar. Axı kişi Fərhad kimi əli külünglü olar. Kişi ata-babalarımız kimi əli dırmıqlı, belli, kərəntili olar. Bəs belə isə kiminsə kölgəsinə sığınanların adı nədir? Belələrini tanımaq üçün çox əziyyət çəkmək lazım deyil, sadəcə bir qədər düşünmək yetər. Onların bu istəyinin arxasında nəyin olduğu gün kimi aydındır. Qayınata hesabına arzularını həyata keçirmək, vəzifəyə getmək, ev, maşın sahibi olmaq və yaxud da çirkin həyat tərzi yaşamaq. Bütün bunlara görə də aldanmayaq.

Və aldatmayaq. Qoy kimsə kimsəni şəxsi istəklərinə görə aldatmasın. Onsuz da tez, gec, hər şey ortaya çıxacaq. Bu zaman isə ortada qalan gənc qızlar və onların övladları olur. Bu məsələlərə valideynlər daha həssaslıqla yanaşmalıdır. Qızlarının həyat quracağı insanın insanlığını axtarmalıdırlar. Əgər bu, varsa, inanın ki, bütün maddiyyat onun kölgəsində qalacaqdır. Biz insan olduğumuz üçün bizə insani dəyərlər daha çox gərəkdir, nəinki maddi dəyərlər...

"Pulun var", alaram. Nə qədər utandırıcıdır, deyilmi?..

***Mətanət Məmmədova***

MÜNASİBƏT

# Dünyanın çörək imtahanı

*Türkiyə variantlar axtarır*



Dünya oyunçuları və hər şeydən əvvəl Türkiyə Qara dəniz təşəbbüsünün dayandırılması nəticəsində yaranan taxıl böhranından çıxış yolu axtarmağa davam edir. Ankaranın qarşısına qoyduğu əsas vəzifə Moskvanı taxıl müqaviləsini canlandırmaq üçün razı salmaqdır. Qərb mətbuatının yazdığına görə, Türkiyə də Rusiyadan kənd təsərrüfatı məhsullarının yoxsul ölkələrə ixracı üçün Rusiya və Qətərlə üçtərəfli razılaşmanın təşəbbüskarı olub. İstanbul müqavilələrinin əvəzi ola bilməyəcək, lakin Moskva üçün əlavə bonus ola bilər. Budapeşt həftəsonu xarici dövlət xadimlərinin, o cümlədən Türkiyə və Qətər liderləri Rəcəb Tayyib Ərdoğan və Təmim bin Həməd Al Tani, həmçinin Tatarıstan rəhbəri Rüstəm Minnixanovun Macarıstan Dövlətçilik Gününü qeyd etmək üçün toplaşdığı mərasimdə də taxıl müzakirələrinin mərkəzinə çevrilib.

Taxıl sazişinin dayandırılmasından bir ay sonra Türkiyə İstanbul müqavilələrini canlandırmaq cəhdlərindən əl çəkmir, bu isə Rusiyanın müqavilələrin bir hissəsini yerinə yetirməməsi səbəbindən rədd edilməsinə səbəb olub. Ankaranın əsas məqsədi prezidentlər Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin arasında üzbəüz görüşün keçirilməsidir. Lakin bu ərəfədə Moskva üçün əlavə arqumentlər və təkliflər axtarır. Beləliklə, Budapeşt avqustun 20-də bir çox xarici liderlərin Müqəddəs Stefan Günündə - Macarıstan dövlətinin qurulmasının milli bayramında həm də dünya problemlərinin həllinə evsahibliyi də etdi.

Digər Aİ ölkələrindən fərqlənən Ukrayna böhranı ilə bağlı mövqeyinə görə 2022-ci ilin fevral ayından Qərbdən bir növ təcrid vəziyyətində olan Macarıstan növbəti üç gündə böyük siyasətin mərkəzinə çevrilib. Azərbaycan, Özbəkistan və Türkmənistan prezidentləri İlham Əliyev, Şavkat Mirziyoyev və Serdar Berdiməhəmmədov, həmçinin Türkiyənin Prezidenti cənab Ərdoğan, Təmim bin Həməd Al Tani və Rüstəm Minnixanov Budapeştə gəliblər. Son üçlüyün Budapeştdə olması xüsusi maraq doğurur-du, bir gün əvvəl Almaniyanın "Bild" qəzeti Moskva ilə Ankara arasında iyulun 21-dən avqustun 8-dək olan rəsmi diplomatik yazışmalara istinad edərək, yeni taxıl sazişinin hazırlandığını elan etdi - Bu dəfə Türkiyə, Rusiya və Qətər arasında.

Tərəflərdən heç biri yazışmaların həqiqiliyini təsdiqləməyib. Buna baxmayaraq, jurnalistlər onun məzmununa əsaslanaraq belə qənaətə gəliblər ki, Moskva taxıl sazişindən çıxacağı ilə bağlı Ankaranı əvvəlcədən xəbərdar edib və indi tərəflər Dohanın da iştirakı ilə Rusiyanın kənd təsərrüfatı məhsullarının ixracına dair yeni üçtərəfli saziş üzərində işləyirlər. Söhbət kasıb ölkələrə, əsasən Afrikaya taxıl tədarükündən gedir. Bu sxemdə Türkiyə prosesin təşkilatçısı, Qətər isə onun sponsoru rolunu öz üzərinə götürməlidir.

Düzdür, Ankara, Moskva və Doha razılaşmaları çətin ki, Qara dəniz təşəbbüsünün əvəzedicisi ola bilsin, yalnız ona görə ki, Ukrayna taxıl problemini heç bir şəkildə



həll etmir. Buna baxmayaraq, onlar İstanbul razılaşmalarının bərpası lehinə arqument ola bilərlər. Hər halda, "Bild"-in yazdığına görə, Türkiyənin xarici işlər naziri Hakan Fidan eyni vaxtda Rusiya Federasiyasını Ukrayna taxılının dünya bazarlarına çıxışını təmin edərək əvvəlki sövdələşməni bərpa etməyə inandırır. Ankara BMT-nin himayəsi altında fəaliyyət göstərməyi təklif edir və Almaniya nəşrinin yazdığına görə, saziş artıq Budapeştdə bağlana bilər, burada üç təyin olunmuş tərəfin nümayəndələri toplaşır. Hələlik Türkiyə-Rusiya-Qətər arasında yeni taxıl müqaviləsinin necə görünə biləcəyi ilə bağlı rəsmi şərh verilməyib. Rüstəm Minnixanovun mətbuat xidmətinin rəhbəri Liliya Qalimova mətbuata açıqlamasında bildirib ki, Tatarıstan liderinin başçılıq etdiyi nümayəndə heyəti "respublika proqramı üzrə Macarıstanda işləyir". "Bunlar sırf Tatarıstana aid suallardır" deyə xanım Qalimova şərh sorğusuna cavab olaraq yazıb.

Bu və ya digər şəkildə, əvvəllər Tatarıstan rəhbərinin mətbuat xidməti Rüstəm Minnixanovun Macarıstanda iki gün qalacağını və buna görə də medianın yeni sövdələşmənin potensial iştirakçıları adlandırdığı şəxslərlə əlaqə saxlamaq üçün mütləq nəzəri imkana malik olduğunu bildirib. Üstəlik, Ankara cənab Ərdoğanın digər məsələlərlə yanaşı, Ukrayna böhranının nizamlanması və köhnə taxıl müqaviləsinə xitam verildikdən sonra Qara dənizdə təhlükəsizliyin təmin edilməsi üçün yol xəritəsinin hazırlanmasını müzakirə etmək üçün Budapeştə getdiyini də gizlətməyib.

"Sovecon" analitik mərkəzinin direktoru Andrey Sizov ehtimal olunan yeni sövdələşməni diqqətlə şərh edib və bildirib ki, bu barədə hələ də aydınlıq yoxdur. A.Sizov deyib ki, Rusiya bütün taxılı pulsuz tədarük etmək istəmir: "Bildirildi ki, Afrika ölkələrinə 300 min tona qədər pulsuz tədarük etməyə hazırdır. Qətər tarixən Türkiyəyə yaxındır, bu ölkə Türkiyə iqtisadiyyatının əsas investorlarından biridir. Bu hekayədə Tatarıstan görünə bilər, çünki tatarlar türklər və Qətər əhalisinin əksəriyyəti kimi sünnidir. Belə çıxır ki, bu, elə "sünni taxıl müqaviləsi"dir və Ərdoğan on birinci dəfə dünyanı yenidən aclıqdan xilas etdiyini deyə biləcək. Rusiya həm də Qətər kimi kasıb ölkələrə özü üçün çox da böyük olmayan pullar müqabilində kömək edir".

"Süni taxıl müqaviləsi" sızıntılarına paralel olaraq, Türkiyənin ABŞ-ın təzyiqi altında Moskvanın iyul ayında imtina etdiyi taxıl təşəbbüsünü canlandırmaq üçün çalışdığı bildirilir. Bu, xüsusən də "The Wall Street Journal" tərəfindən ehtimal edilərək yazılıb. Vaşinqton həm Dunay boyunca, həm də quruda Ukrayna üçün mühüm taxıl ixrac marşrutu olan Rumıniya istiqamətində də fəaldır.

Söhbət tranzit həcminin 2 milyon tondan 4 milyon tonadək, ideal olaraq iki dəfə artırılmasından gedir. Avqustun 18-də Rumıniyanın baş naziri Marsel Kolacu Buxarestdə ukraynalı həmkarı Denis Şmıxal ilə görüşdə ölkəsinin Ukrayna taxılının 60%-nin ixracını təmin etmək niyyətindən danışıb. Bu, Ukraynanın Reni və İzmail limanlarından taxılın çatdırıldığı Sulina (Rumıniya) və Bystry (Ukrayna) kanalları boyunca naviqasiyanın optimallaşdırılması tələb edəcək. Gəmilərin hərəkətini onlayn izləməyə imkan verən "Marine Traffic" resursu Dunay deltasında naviqasiyanın yüksək intensivliyini göstərir. Orada əsasən yük gəmiləri hərəkət edir.

Andrey Sizov qeyd edir ki, "Tuna və quru yolu ilə çatdırılma, hətta taxıl müqaviləsi işləyərkən belə əsas kanal idi". İlin əvvəlində Bosfor boğazında aparılan yoxlamalar ixracı yavaşlatdıqdan və gəmilər yavaş-yavaş hərəkət etməyə başladıqdan sonra Dunay istiqamətində əsas ixrac kanalına çevrildi. Birlikdə, Ukrayna taxılının həcminin yarısından çoxu Dunay boyunca və quru yolla ixrac edildi.

"Dunay əsas kanaldır. Üstəlik, amerikalılar böyük bir ərzaq böhranının yaxınlaşdığı və bununla bağlı nəsə edilməli olduğu hekayəsini fəal şəkildə təbliğ edirlər. Sadəcə olaraq taxıl tədarükünə müdaxiləni dayandırmaq və qadağanı aradan qaldırmaq üçün işləmək (sentyabrın 15-nə qədər Ukrayna taxılının Aİ-yə idxalına məhdudiyyətlər tətbiq edən - SİA) bütün ölkələrlə daha praqmatik olardı. Zelenski deyib ki, Avropa qadağanı aradan qaldırmağa söz verib. Lakin Polşa bununla razılaşmır. Polşa ilə bağlı məhdudiyyətlər sentyabrın 15-dək qüvvədədir, lakin oktyabrda Polşada mühüm parlament seçkiləri var", deyə Sizov deyib.

"Sovecon" rəhbəri qeyd edir ki, terminallar az-çox işləsə, Rumıniya ayda 2-2,5 milyon ton ixracı təmin edə bilər: "Amma hazırda Dunayda, eləcə də quruda malik olduğumuz imkanlarla belə Ukrayna edə bilər. Sadəcə olaraq bəzi Aİ ölkələrinin etdiyi kimi buna qarışmaq, ixracı bloklamaq və ölkələrinizə çatdırılmanı qadağan etmək lazım deyil".

Qeyd edək ki, Rumıniya taxıl ixrac marşrutunu 100% təhlükəsiz hesab etmək olmaz. Rusiya taxıl sazişindən çıxdıqdan sonra dəfələrlə İzmail və Reni limanlarına və digər infrastrukturlara zərbələr endirib.

Qara dənizdəki eskalasiya çox güman ki, uzun müddət davam edəcək. Eskalasiya istiqamətində bir çox addımlar artıq keçib və növbəti addımın nə vaxt atılacağı zaman məsələsidir. Rusiya, Türkiyə və Qətər arasında razılaşma varsa, Qara dənizdə eskalasiya baxımından çox az təsir göstərir. Ən əhəmiyyətli və vacib risk Ukraynadakı vəziyyətdir. Taqanroqa Ukrayna raketinin düşməsi, Rusiyanın əsas taxıl limanı olan Novorossiysk yaxınlığında da daxil olmaqla, Rusiya gəmilərinə, Krım körpüsünə hücumlar olub. Körpü xüsusilə vacibdir - ona edilən hücumlar bütün Kerç boğazını bağlayır və bu, Rusiya ixracının 30% -ni təşkil edir.

Beləliklə, Ukraynadan eskalasiya davam edir və əgər bazar hesab edir ki, bu, Rusiya taxılında real problemlər yaradır, deməli, bu, daha vacibdir. Rusiyanın Qara dəniz-Azov hövzəsinə alternativi yoxdur. Əgər orada nəsə olarsa, bu, problemə çevriləcək.

"Qara qitə" şimaldan ya Rusiya, ya da Ukrayna taxılını gözləyir. Hər iki taxıl ixracatçısı arasında baş verən müharibə səbəbindən bütün marşrutlar iflic vəziyyətinə düşüb. Türkiyə və onun dostları dünyanı aclıqdan xilas etməyə çalışdıqları bir vaxt onların özləri üçün də əlavə problemlər yaradılır. Deməli, dünya özünü intihara gedir, başqa ad verməmək mümkün deyil.

**V.VƏLİYEV**



# Ta bu qədər də yox...

**MƏTANƏT**

***Bu fikirdəyəm ki, heyvanları sevməyən hissiz, duyğusuz adamdır. Həm də özünə hörmət qoymur ki, heyvanlara da sevgi verə bilmir. Yəni, onları sevmir.***

Sevimlidir heyvanlar, buna şübhə yoxdur. Onları sevdikcə sanki insani duyğularımız çoxalır. Onların bizə ehtiyacı olduğunu anlayırıq. Həm də köməyə ehtiyacları olduğunu dərk edirik. Bu köməyi isə yalnız biz onlara edə bilərik.

Edirik də... Heyvanlara yem alıb veririk, müxtəlif yerlərə su qabları yerləşdiririk. Onların mühafizəsi və qorunması üçün tədbirlərə qoşuluruq, yaşıllıqları çoxaltmağa çalışırıq ki, bu, heyvanlar üçün daha vacibdir. Hətta heyvanları evlərimizdə də saxlayırıq. Onlar bizim dostumuz, həmdəmimiz, bəzən sirdaşımız da olurlar. Bəzən evlərimizin səs-küyü, bəzən yol yoldaşımız, bəzən əsəblərimizi sakitləşdirəndir onlar...

Həqiqətən onları sevməmək mümkün deyil. Çünki çox sevimlidirlər, bəzən ətrafımızdakı insanların anlamadığı qədər bizi anlayır, qayğı göstərirlər. Elə heyvanlarla bizi bir-birimizə bağlayan da bu cəhətlərdir. Lakin hər şeyin bir həddi olduğunu da unutmasaq, daha yaxşı olar. Son günlərdə qarşılaşdığım bir neçə mənzərə ilə bunları söyləməyə haqlı olduğumu düşünürəm. Ona görə də deyirəm ki, ta bu qədər də yox.

Parkda gəzirəm. İki oğlan var qarşıda, itləri ilə gəzintiyə çıxıblar. Gəlib yanlarından keçəndə nə eşitsəm yaxşıdır? Oğlanlardan biri itə deyir ki, gedək ta, atam. Buyurun, siz deyin, olar belə? Necə yəni, gedək ta atam. Bu, itə sevginin, hörmətin ölçüsüdürsə, bu ölçü dəyərini dəyişsək, daha yaxşı olar. Hər halda it itdir, nə qədər yaxın dost, sevimli heyvan olsa da. Ata da atadır ki, biz onu Allahdan başqa bütün varlıqlardan üstün tuturuq. O heç kimə, heç nəyə bənzədilməyən böyüyümüz, ağsaqqalımız, əzizimizdir. İtə bu cür müraciət qəbahətdən qəbahətdir, deyilmi?.. Ta bu qədər də yox...

İşə gəlirəm, baxıram ki, bir qız qarşıdakı avtomobildən düşdü. Qucağında deyəsən uşaqdır, elə basıb ki, bağrına, az qalır bağrı çatlasın. Yaxınlaşıb nə görsəm yaxşıdır? Bu, uşaq deyil, itdir. Anlayırıq, sahibi itini çox sevir, lakin bu qədər yaxın təmas nə qədər doğrudur? Hansı birimiz evimizdə saxladığımız it və ya pişiklərin sağlamlığına təminat verə bilərik? Bu səbəbdən də ta bu qədər də yox...

Keçən günlərdən birində yenə parkda baxıram ki, bir ana uşağı və iti ilə gəzintidədir. Eyni zamanda qonşusudur, qohumudur, bilmirəm, başqa bir qadın da var yanında, onunla möhkəm söhbətdədir. Uşaq da nə edir? Əlində çörəkmiydi, peçenyəmi, uzadır itə, o da ağzını vurur, sonra çəkir aparır bir dişlək alır, yenə itə tərəf uzadır... Ana isə söhbətdədir. Bunların heç birini görmür. Dayana bilmədim, ananı xəbərdar etdim. O da sağ olsun, mənə elə qəribə bir göz süzdürdü ki. Amma cəhənnəmə süzdürsün. Uşağın sağlamlığı naminə deməli idim. Yenə də öz-özümə pıçıldadım: ta bu qədər yox...

Və yaxud da ki, qonşuda uşaqla bir yerdə yatan pişik. Uşaq yatıb, pişik də onun yanında, nəfəs-nəfəsə. Anasına deyirəm ki, axı belə olmaz. Cavab verir ki, tər-təmizdir, onun neyi var ki... Çimdirirəm, təmizləyirəm, həkimə göstərirəm. Amma mən ananın bu fikirləri ilə qəti razılaşmıram. Deyirəm ki, həkim hansı USM-dən keçirib bunu, daxilində hansı xəstəliyin olmasını müəyyənləşdirib? Yoxsa kompüter tomoqrafiya edib, xəbərimiz olmayıb?

Ana gülümsəyir...

Mən də deyirəm ki, ta bu qədər yox...

# Milli parklara və bulaqlara giriş zamanı ödənişin tələb olunması qanunidir?

**Xüsusi mühafizə olunan təbiət əraziləri - xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanıdır.**

Azərbaycan Respublikasının ərazisində məqsədindən, mühafizə rejimindən və istifadə xüsusiyyətlərindən asılı olaraq xüsusi mühafizə olunan təbiət əraziləri aşağıdakı növlərə ayrılır:

- dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqları;
- milli parklar;
- təbiət parkları;
- ekoloji parklar;
- dövlət təbiət yasaqlıqları;
- təbiət abidələri;
- zooloji parklar;
- nəbatat bağları və dendroloji parklar;
- müalicə-sağlamlaşdırma yerləri və kurortlar;
- geoloji parklar.

Azərbaycanda qorunan ərazilərin yaradılmasını şərti şəkildə 3 mərhələyə bölmək olar: I mərhələ - ilk xüsusi mühafizə olunan təbiət ərazisinin yaradılması (Eldar şamı Botaniki Yasaqlığı - 1910-cu il), II mərhələ - qoruq və yasaqlıqların yaradılması (1925-1936-cı illərdə Göygöl, Qızılağac, Zaqatala, Hirkan, 1958-1993-cü illərdə Türyançay, Şirvan, Ağgöl, Pirqulu, İsmayıllı, İlisu, Qaragöl yasaqlıqları), III mərhələ - 2003-cü ildə ilk milli parkların yaradılması.

Hazırda Azərbaycanda 893 min hektar sahəni əhatə edən mühafizə olunan təbiət əraziləri fəaliyyət göstərir. Bunlardan 10 milli park, 10 dövlət təbiət qoruğu, 24 dövlət təbiət yasaqlığıdır. Ümumilikdə, xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,31 %, ayrılıqda milli parklar ölkə ərazisinin 4,87 %, dövlət təbiət qoruqları 1,39 %, dövlət təbiət



yasaqlıqları isə 4.05 %-ni təşkil edir.

Milli parklar - xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olan təbiəti mühafizə və elmi müəssisə və ya təşkilat statusuna malik olan ərazilərdir.

Azərbaycan Respublikasında milli parkların yaradılması ilə bağlı ilk təşəbbüs Akademik Həsən Əliyev tərəfindən irəli sürülmüşdür. Ölkəmizdə ilk milli parklar 2003-cü ildə yaradılmışdır. Daha sonrakı dövrdə bu ənənə davam etdirilmiş və son olaraq, 2018-ci ilin sentyabrında Xəzər dənizinin sahilində 99 060 hektarlıq ərazidə Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında yeni milli park - Qızılağac Milli Parkı yaradılmışdır.

Hal-hazırda, Azərbaycanda ölkə ərazisinin 4,87 % təşkil edən 10 milli park fəaliyyət göstərir.

## Dünyada hansı milli parklar mövcuddur?

Amerika qitəsində ən məşhur milli parklar aşağıdakı kimidir:

***İquasu Milli Parkı (Argentina)***

Argentina-Braziliya sərhəddində 550 kvadrat kilometr ərazisi ilə dünyanın ən möhtəşəm şəlalələrinə sahib olan İquasu Milli Parkında 2000-dən çox növ yaşayır. Parkdakı





275 şəlalədən ən böyüyünün "Şeytan Boğazı" adlanan eninin 150 metr, uzunluğunun isə 700 metr olduğu bildirilir.

***Yosemite, Böyük Kanyon və Yellowstone (ABŞ)***

ABŞ-da Yosemit, Böyük Kanyon və Yellowstone ölkənin görkəmli milli parkları arasındadır. Kaliforniya əyalətində 3081 kvadrat kilometr əraziyə malik Yosemite Milli Parkı təmiz gölləri, qranit qayalıqları, şəlalələri, şam meşələri və sekvoya ağacları ilə diqqət çəkir. YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil olan park ayıları ilə məşhurdur.

Arizona ştatının sərhəddində yerləşən, Kolorado çayının 5,5 milyon illik hərəkəti nəti-



cəsində yaranan Böyük Kanyonda sarı, qırmızı, narıncı, çəhrayı, qırmızı, vadilər, sıldırım yamaclar və qaya təbəqələri var. qəhvəyi və yaşıl rənglər. Kanyonun bəzi yerlərində dərinliyi 1600 metrə çatır.

Hind məskənlərinin məskəni olan kanyonda yaşayan heyvanlar arasında kaliforniya quşu, qaranquş, kolibri, qarğa, maral, qoyun, koyot, dağ aslanı, vaşaq, qara ayı və dələ var.

Aydaho, Montana və Vayominq ştatlarında yerləşən, dünyanın ilk milli parkı olan Yellowstone Milli Parkı 8987 kvadrat kilometr ərazidə inşa edilmişdir. 10 mindən çox isti su mənbəyi olan parkda 300-dən çox geyzer və 300-ə yaxın şəlalə var. Parkda xüsusilə Şimali Amerika qrizli ayısı, Amerika qara ayısı, bizon, sığın, antilop, koyot və vaşaq yaşayır.

***İquaçu Milli Parkı (Braziliya)***

Braziliyanın cənubunda təxminən 1700 kvadrat kilometr ərazidə qurulan İquaçu Milli Parkı Argentinadakı İquasu Milli Parkının qonşusudur. YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş parkda yaquar, Amerikada yaşayan kiçik qara xallı vəhşi pişik, uzun gövdəli və uzun quyruqlu orta ölçülü tropik vəhşi pişik, Harpi qartalı, nəhəng su samuru da daxil olmaqla zəngin biomüxtəliflik var. Tapir, cücə cariyaku və nəhəng qarışqa yeyən heyvan növləri nəsli kəsilmək təhlükəsi altındadır.

***Isla Bastimentos Milli Dəniz Parkı (Panama)***

Bocas del Toro bölgəsində yerləşən Isla Bastimentos Milli Dəniz Parkı 132 kvadrat kilometr ərazini əhatə edir. Manqrovlarla örtülmüş qumlu adaları əhatə edən parkda 10 mindən çox bitki və heyvan növü, xüsusilə timsahlar, meymunlar və dəniz tısbağaları yaşayır.

***Torres del Paine Milli Parkı (Çili)***

Çili Pataqoniyasında 2420 kvadrat kilometr ərazidə qurulan Torres del Paine Milli Parkında 3000 metr hündürlüyündə buzlaqlar və fyordlar, eləcə də dağlar diqqət çəkir. Qranit qayalarla örtülmüş 3 dağ parkın simvoludur və "Qarğalar taxtı" kimi tanınır. Çoxlu göllərin, tundra və sərv ağaclarının olduğu parkda puma, kondor, guanako, And dağlarında yaşayan heyvan və boz Pataqon tülkü yaşayır.

***Galapagos Milli Parkı (Ekvador)***

Dünyanın ən maraqlı və unikal eko-sistemlərindən biri UNESCO-nun Ümumdünya İrs siyahısında olan Qalapaqos Milli Parkında görünür. Vulkanik arxipelaqın daxil olduğu parkdakı adaların 97 faizində yaşayış yoxdur.

Qalapaqosda eyniadlı tısbağa və pinqvinlərdən başqa çoxlu sayda heyvanlar, xüsusən də iquanalar, gannetlər və dəniz şirləri yaşayır. Bildirilir ki, Qalapaqos dünyada vəhşi heyvanların insandan qorxmadığı yeganə milli parkdır.

Bəs, ölkəmizdə hansı milli parklar var?

## Qızılağac Milli Parkı

Yaranma tarixi: 26 sentyabr 2018-ci il

Yerləşməsi: Lənkəran, Masallı və Neftçala rayonları

Sahəsi: 99 060 ha

Landşaft: Su-bataqlıq ərazisi, Xəzər dənizi sahili

Rast gəlinən bitki növləri: Xəzər şanagülləsi (Nelumbo caspica), ağ suzanbağı (Nymphaea alba), üçyarpaq oxyarpaq (Sagittaria trifolia), qamış (Phragmites australis), dəniz lığvəri (Bolboschoenus maritimus), ciyən (Typha angustifolia), ətirli yovşan (Artemisia fragrans), gəngiz (Salsola nudulosa), xəzər şahsevdisi (Halostachys caspica), xəzər sarıbaşı (Kalidium caspicum) və s.

Rast gəlinən heyvan növləri: adi turac (Francolinus francolinus), qamışlıq fərəsi (Porzana pusilla), kiçik ağ vağ (Egretta garzetta), çöl donuzu (Sus scrofa), canavar (Canis lupus) və s.

"Qırmızı Kitab"a daxil olan növlər: Qamışlıq pişiyi (Felis chaus), adi qızılqaz (Phoenicopterus roseus), ağqaş qaz (Anser erythropus), adi göydimdik (Oxyura leucocephala), mərməri ördək (Marmaronetta angustirostris), adi bəzgək (Tetrax tetrax), çöl leyi (Circus macrourus) və s.

Təbii, tarixi, mədəni yerlər: "Şeyx Zahid" türbəsi, tarix-diyarşünaslıq muzeyi, xalq sənətkarlığı şəhərciyi, "Xəlifə" türbəsi, "Dairəvi qala" ("Zindan") memarlıq abidəsi, Mirəhməd Xanın evi, Lənkəran Mayakı, Bəlləbur qalası

Turistlərin nəzərinə: Milli parkda 4 növ az yayılan və 3 növ Qafqaz endemik bitkisi (yalnız Qafqaz regionunda rast gəlinən) - hibrid qovağı, sapvari bağayarpağı, Qrossgeym topgülü və bir növ Azərbaycan endemiki - buruncuqlu turp qeydə alınmışdır.

## Göygöl Milli Parkı

Göygöl təbiətinin gözəlliyi sayəsində daima diqqəti cəlb etmiş və XX əsrin əvvəllərində - 1910-1912-ci illərdə ərazidə qoruq yaradılması məsələsi qaldırılmışdır. 1925-ci ildə Azərbaycan Respublikasının ərazisində ilk qoruq olan Göygöl Dövlət Təbiət Qoruğu yaradılmışdır. Sonralar qoruq ləğv edilmiş və ictimaiyyətin arzu və təkliflərinə əsasən Azərbaycan SSR Nazirlər Sovetinin 14 iyul 1965-



ci il tarixli 475 nömrəli Qərarına əsasən yenidən təşkil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 01 aprel 2008-ci il tarixli Sərəncamına əsasən Göygöl Dövlət Təbiət Qoruğunun və Azərbaycanın Xanlar (indiki Göygöl), Daşkəsən və Goranboy rayonlarının inzibati ərazilərində Göygöl Milli Parkı yaradılmışdır. Sahəsi 6 739 olan Göygöl Dövlət Təbiət Qoruğu Milli Park statusu aldıqdan sonra, onun ərazisi artırılaraq, 12 755 hektara çatdırılmışdır.

Göygöl Milli Parkı zəngin bitki örtüyünə malikdir. Burada dağ-meşə, dağ-bozqır, subalp və alp dağ-çəmən bitki ekosistemləri yayılmışdır. 1100-2200 m hündürlükləri əhatə edən dağ meşələri çox zəngin olub, 80-ə qədər ağac və kol növünə malikdir. Meşələrin əsas hissəsini kiçik yarpaqlı ağaclardan şərq fıstığı (Fagus orientalis), şərq palıdı (Quercus macranthera), Qafqaz vələsi (Carpinus caucasica), tozağacı (Betula pendula), adi göyrüş (Fraxinus excelsior), ağcaqayın (Acer campestre), cökə (Tilia cordata), iynəyarpaqlı ağaclardan isə Kox şamı (Pinus kochiana) təşkil edir. Kol bitkilərindən zoğal, zirinc, itburnu, əzgil, gərməşov, böyürtkən və s. yayılmışdır. Ot bitkilərindən Qafqaz bənövşəsi (Viola caucasica), alp dişəsi (Poa alpina), Steven zəncirotu (Taraxacum stevenii), zəngçiçəyi (Campanula sp.), çobanyastığı (Anthemis sp), şırımlı topal (Festuca rupicola), ağbığ (Nardus stricta), qırtıc (Poa bulbosa) və s. göstərmək olar. Bu növlər ən çox subalp çəmənliyində yayılmışdır.

Ardı Səh. 12

ARAŞDIRMA

# Milli parklara və bulaqlara giriş zamanı ödənişin tələb olunması qanunidir?

Əvvəli Səh. 11

Milli parkın ərazisinin 2000-ə qədər hündürlüyü əhatə etməsi, müxtəlif bitki formasiyalarının bir-birinə əvəz etməsi, ərazinin ümumi coğrafi mövqeyi burada heyvanlar aleminin də xeyli zənginliyinə şərait yaratmışdır.

Göygöl Milli Parkının ərazisində məməli heyvan növlərindən Qafqaz maralı 9cervus elaphus), Avropa cüyürü (Capreolus capreolus), qonur ayı (Ursus arctos), dağ keçisi (Capra aegagrus), porsuq (Meles meles), meşə pişiyi (Felis silvestris), vaşaq (Lynx lynx), daşlıq dələsi (Martes foina), gəlincik (Mustela erminea), adi kirpi (Erinaceus concolor), tülkü (Vulpes vulpes), Radde qonurdişi (Sorex raddei), xırda köstəbək (Talpa levantis), ağqarın ağdiş (Crocidura leucodon) və s., quş növlərindən bildirçin (Coturnix coturnix), meşə göyərçini (Columba oenas), adi qur-qur (Streptopelia turtur), meşə cüllütü (Gallinago gallinago), göl qağayısı (Chroicocephalus ridibundus), saqqallı quzugötürən (Gypaetus barbatus), qara kərkəs (Aegypius monachus), leşyeyən ağkərkəs (Neophron percnopterus), iri yapalaq (Bubo bubo), bayquş (Asio otus), fısıldayan qu quşu (Cygnus olor), qara ağacdələn (Dryocopus martius), sarıköynək (Oriolus oriolus), meşə turağayı (Lullula arborea), çil qaratoyuq (Turdus viscivorus) və s. yayılmışdır. Milli parkın ərazisində nadir növlər olan Qafqaz maralı (Cervus elaphus) qorunur.

## Şirvan Milli Parkı

Yaranma tarixi: 5 iyul 2003-cü il

Yerləşməsi: Kür-Araz ovalığı (Qaradağ, Salyan və Neftçala rayonları)

Sahəsi: 54 374,5 ha

Landşaft: Yarımsəhra, çöl, düzən gölü, su-bataqlıq ərazisi, dəniz sahili

Rast gəlinən bitki növləri: iydə (Elaeagnus caspica), Xəzər sarıbaşı (Kalidium caspicum), Xəzər şahsevdisi (Halostachys caspica), ağacşəkilli çərən (Suaeda dendroides), ağacşəkilli gəngiz (Salsola dendroides), şoviç yovşanı (Artemisia szowitziana), budaqlı qışotu (Petrosimonia brachiata),ətirli yovşan (Artemisia fragrans) və s.

Rast gəlinən heyvan növləri: su-bataqlıq quşları (cüllütkimilər, qazkimilər, qızılqazlar), canavar, çaqqal, dovşan, ərəb dovşanı, ilanlar və s.

"Qırmızı kitab"a daxil olan növləri: ceyran, qamışlıq pişiyi, adi qızılqaz, bəzgək və s.

Şirvan Milli Parkının heterofaunasında 17 növ sürünən - Aralıq dənizi tısbağası, Xəzər tısbağası, bataqlıq tısbağası, Xəzər gekkonu, koramal, cəld kərtənkələcik, rəngbərəng kərtənkələcik, zolaqlı kərtənkələ, suilanı, zeytuni təlxə, qızılı təlxə, Qafqaz gürzəsi və s. qeydə alınmışdır.

Quşların miqrasiya yollarında yerləşən Şirvan Milli Parkında 230 növ quş qeydə alınmışdır. Miqrasiya zamanı və quşların qışlama dövründə göllərin və dənizin dayaz yerlərində əsasən yaşılbaş ördəklər, fitçi cürə, boz ördək, marek, cırıldayan cürə, enliburun ördək,



flaminqo, fısıldayan qu, qaşqaldaq, dərin su sahələrində isə qırmızıburun, qırmızıbaş, kəkilli və dəniz dalğıcları, güləyən ördək və digər növləri toplantılar əmələ gətirir.

Böyük və Kiçik Çala (Qızılqaz) göllərində faunanın 60-65%-ni qarğı və qamışlıqların əsas sakinləri su fərəsi, adi qamışlıq fərəsi, kiçik qamışlıq fərəsi, cırtdan qamışlıq fərəsi təşkil edir.

Yırtıcı quşlardan çay qaraquşu, ağquyruq dəniz qartalı, çöl sarı, adi sar, çöl qartalı, böyük qartalça, imperator qartalı, ütəlgi qızılquş, şahin və s. növlərə az miqdarda rast gəlinir.

Məməli heyvanlardan Respublikamızda yayılmış demək olar ki, bütün dəstələrin nümayəndələrinə Şirvan Milli Parkının ərazisində rast gəlinir.

Həşəratyeyənlər dəstəsindən ağdöş və qulaqlı kirpilər, güldenştedt qonurdişi, yarasalar dəstəsindən itiqulaq, bığlı, cırtdan və Küli şəbpərələri, kiçik və böyük nalburunlar, ikirəng könlücə, dağ könlücəsi və s., gəmiricilər dəstəsindən ictimai çöl siçanı, qara və boz siçovullar, qırmızıquyruq qum siçanı, Kiçik Asiya ərəbdovşanı, qara və boz siçovullar, qırmızıquyruq qum siçanı, doşankimilərdən boz dovşan, yırtıcılardan canavar, çaqqal, tülkü, gəlincik, safsar, porsuq, qamışlıq pişiyi, çöl pişiyi, cütdırnaqlılardan çöl donuzu və ceyran məməlilər faunasının özəyini təşkil edir.

## Hirkan Milli Parkı

Yaranma tarixi: 9 fevral 2004-ci il

Yerləşməsi: Talış dağları (Astara və Lənkəran rayonları)

Sahəsi: 40,358 ha

Landşaft: Meşə, dağ-meşə

Rast gəlinən bitki növləri: budaqlı danaya (Danae racemosa), hirkan bigəvəri (Ruscus hyrcanus), Pastuxod daşsarmaşığı (Hedera pastuchovii), Buasye armudu (Pyrus boissieriana), qanadmeyvə yalanqoz (Pterocarya pterocarpa), ürəkyarpaq qızılağac (Alnus sub-



cordata), dəmirağac (Parrotia persica), şabalıdyarpaq palıd (Quercus castaneifolia), vələsyarpaq azatağacı (Zelkova carpinifolia), vələs (Carpinus orientalis), şərq fıstığı (Fagus orientalis) və s.

Rast gəlinən heyvan növləri: qara leylək (Ciconia nigra), hirkan arıquşu (Parus hyrcanus), qaratoyuq (Turdus torquata), sığırçın (Sturnus vulgaris), çöl muymulu (Falco naumanni), Talış qırqovulu (Phasianus colchicus talischensis), Türküstan qırğısı (Accipiter badius), çöl donuzu (Sus scrofa), porsuq (Meles meles), yenot (Procyon lotor), canavar, tülkü (Vulpes vulpes) və s.

Qırmızı kitaba daxil olan növlər: Hirkan şümşəsi (Ilex hyrcana), Hirkan qovağı (Populus hyrcana), Lənkəran gülxətmisi (Alcea lenkoranica), giləmeyvəli qaraçöhrə (Taxus baccata), Talış uzunbığı (Purpuricenus talyshensis), Talış məxməri kəpənəyi (Lasiommata adrastoides), qara leylək (Ciconia nigra), cırtdan qartal (Hieraaetus pennatus), tirəndaz (Hystrix indica), Ön Asiya bəbiri (Panthera pardus saxicolor), qonur ayı (Ursus arctos), vaşaq (Lynx lynx), zolaqlı kaftar (Hyaena hyaena) və s.

## Ağgöl Milli Parkı

Yaranma tarixi: 5 iyul 2003-cü il

Yerləşməsi: Kür-Araz ovalığı (Ağcabədi və Beyləqan rayonları)

Sahəsi: 17 924 ha

Landşaft: Yarımsəhra, düzən gölü, su-bataqlıq ərazisi

Rast gəlinən bitki növləri: yovşan, qaraşoran (Halocnemum strobilaceum), Xəzər şahsevdisi (Halostachys caspica), Xəzər sarıbaşı (kalidium caspicum)və s.

Rast gəlinən heyvan növləri: adi turac (Francolinus francolinus), ağquyruq çökükburun (Chettusia leucurus), haçaquyruq cüllüt (Glareola pratincola), bəzgək (Tetrax tetrax), mərməri ördək (Marmaronetta angustirostris), ağgöz dalğıc (Aythua nyroca), adi göydimdik (Oxyura leucocephala), ağqaş qaz (Anser erythropus), kiçik qarabatdaq (Microcarbo pygmaeus), çöl donuzu (Sus scrofa), canavar (Canis lupus), gürzə (Vipera sp.) və s.

"Qırmızı Kitab"a daxil olan növlər: Qamışlıq pişiyi (Felis chaus), ceyran (Gazella subgutturosa), ağqaş qaz (Anser erythropus), adi göydimdik (Oxyura leucocephala), mərməri ördək (Marmaronetta angustirostris).

## Altıağac Milli Parkı

Yaranma tarixi: 31 avqust 2004-ci il

Yerləşməsi: Böyük Qafqazın ətəkləri (Xızı rayonu)

Sahəsi: 11 035 ha

Landşaft: Dağ meşəsi, dağ çəmənlikləri, yarımsəhra, meşə çöl

Rast gəlinən bitki növləri: qafqaz vələsi (Carpinus caucasica), göyrüş (Fraxinus excelsior), Şərq fıstığı (Fagus orientalis), əzgil (Mespilus germanica), zirinc (Berberis vulgaris), yemişan (Crataegus pentagyna) və s.

Rast gəlinən heyvan növləri: boz canavar (Canis lupus), çöl donuzu (Sus scrofa), bildirçin (Coturnix coturnix), Amerika yenotu (Procyon lotor), boz dovşan (Lepus europaeus), tülkü (Vulpes vulpes), meşə dələsi (Martes mastes), qaratoyuq (Turdus torquatus), alabaxta (Columba palumbus), kəklik (Alectoris chukar) və s.

"Qırmızı kitab"a daxil olan növlər: Qonur ayı (Ursus arctos), vaşaq (Lynx lynx), Avropa cüyürü (Capreolus capreolus), saqqallı quzugötürən (Gypaetus barbatus), qara çalağan (Milvus migrans), kəskiniyli ardıc (Juniperus foetidissima), Qafqaz bənövşəsi (Viola caucasica), itikənarlı süsən (Iris acutiloba) və s.

## Abşeron Milli Parkı

Yaranma tarixi: 8 fevral 2005-ci il

Yerləşməsi: Abşeron yarımadası

Sahəsi: 783 ha

Landşaft: Dəniz sahili, su-bataqlıq ərazisi, yarımsəhra

Rast gəlinən bitki növləri: Yovşan, ot sarmaşığı, yabanı kök, adi qamış, iti cığ və s.

Rast gəlinən heyvan növləri: adi qızılqaz (Phoenicopterus roseus), bizquyruq ördək (Anas acuta), kiçik qarabatdaq (Microcarbo pygmaeus), boz canavar (Canis lupus), çaqqal (Canis aureus), Aralıq dənizi tısbağası (Testudo graeca), Xəzər tısbağası (Mauremys caspica), su ilanı (Natrix tessellata) və s.

"Qırmızı Kitab"a daxil olan növlər: Xəzər suitisi (Phoca caspica), ceyran (Gazella subgutturosa), sultan quşu (Porphyrio porphyrio), ağgöz dalğıc (Aythya nyroca), fısıldayan qu quşu (Cygnus olor), adi qızılqaz (Phoenicopterus roseus), kürən vağ (Ardea purpurea), qıvrımlələk qutan (Pelecanus crispus) və s.

## Şahdağ Milli Parkı

Yaranma tarixi: 8 dekabr 2006-cı il

Yerləşməsi: Böyük Qafqaz (Quba, Qusar, İsmayıllı, Qəbələ, Oğuz və Şamaxı rayonları)

Sahəsi: 130 508, 1 ha

Landşaft: Dağ meşəsi, alp çəmənlikləri, qayalıqlar

Rast gəlinən bitki növləri: Şərq palıdı (Quercus macranthera), Qafqaz vələsi (Carpinus caucasica), Şərq fıstığı (Fagus orientalis), göyrüş (Fraxinus excelsior), qaraçöhrə (Taxus baccata), ağcaqayın (Acer campestre), söyüd, yunan qozu (Juglans regia), gilas, alma (Malus orientalis), armud, əzgil (Mespilus germanica), yemişan (Crataegus sp.), böyürtkan (Rubus buschii), itburnu (Rosa canina), zirinc (Berberis vulgaris) və s.

Rast gəlinən heyvan növlər: Şərqi Qafqaz turu, çöl donuzu, çaqqal, dovşan, dələ, canavar, tülkü, yenot, gəlincik, porsuq, alabaxta, bildirçin və s.

"Qırmızı kitab"a daxil olan növlər: Qonur ayı, nəcib maral, Avropa cüyürü,Qafqaz köpgəri, vaşaq, bərqud qartal, imperator qartalı, Qafqaz tetrası, Qafqaz uları və s.

Son zamanlar bölgələrdə bəzi bulaqlara girişin ödənişli olması ilə bağlı məlumatlar var. Belə ki, ötən gün Qazaxda Damcılı bulağa giriş üçün adam başına 2 AZN ödəniş tələb ediblər. Əgər vəziyyət belədirsə, bunlar hansı bulaqlardır? Belə bir qanun var, yoxsa özbaşına ödəniş tələb edilir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Damcılı bulağı təbii çatlardan süzülən su damcılarına görə damcılı adlandırılmışdır. Ümumi hündürlüyü min metrə çatan nəhəng qayalardan süzülən saf və duru, buz kimi soyuq su damcı-damcı tökülür, aşağıdakı təbii ovucda yığılaraq bulaq olur.

Məşhur Azərbaycan şairi Səməd Vurğun Damcılını dünyanın 8-ci, Azərbaycanın 1-ci möcüzəsi adlandırıb. Bura Qazax rayonun əsas istirahət yeri, turizm mərkəzidir. Yay mövsümündə Qazax əhalisi sərinləmək üçün buraya üz tutur. Qonaqlar üçün bura görməli yerlər marşrutunda olur. Avey dağının aşağısında yerləşən Damcılı bulağı çox mənzərəli yerdə yerləşir.

**Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov:** "Qanunvericiliyimizdə heç bir su obyekti özəlləşdirilə bilməz. Çünki bunlar Azərbaycan Respublikasının ərazisindədir və ictimai yer hesab olunur.

İctimai yer o deməkdir ki, Azərbaycan Respublikasının vətəndaşları və ölkəmizdə olan turistlər həmin yerlərə heç bir ödəniş etmədən daxil ola bilərlər.



Lakin burada bir şərti unutmayaq ki, Azərbaycanın milli parklarına və milli parkların ərazisində olan su obyektlərinə (bulaqlara, şəlalələrə və s.) getmək üçün 2 AZN ödənilməlidir. Bu, o anlama gəlmir ki, biz hansısa bulağı, yaxud şəlaləni görmək üçün ödəniş edirik. Bu, Milli Parka giriş haqqıdır. Giriş haqqını ödədikdən sonra parkın ərazisində 100 bulaq varsa, onun 100-ündən də faydalana bilərik.

Məsələn, Qazaxdakı Damcılı bulaqda belə bir qadağanın qoyulması qanunsuzdur. Dəfələrlə mən də şahidi olmuşam ki, hansısa su obyektinin ətrafını hasarlayıbılar. Ümumiyyətlə, bu çəpərləmə prosesi istər dəniz sahilində, istərsə də gəzməli-görməli yerlərimiz üçün olsun ölkəmizdə böyük problemdir".

**Vəkil Turan Abdullazadə:** "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 178.7-ci maddəsinə əsasən, sahibsiz daşınmaz əşyalar, habelə ictimai sular və becərilməyə yararsız torpaqlar, məsələn, qayalar, yüksək dağlar və onlardan çağlayan bulaqlar, habelə faydalı qazıntılar dövlətə mənsubdur.

Qanunvericiliyin müddəalarından görünür ki, bulaqlar dövlətin mülkiyyətindədir. Dövlətdən başqa heç kəs həmin əraziyə bu və ya digər formada müdaxilə edə bilməz.

Həmin ərazilər heç kim tərəfindən özəlləşdirilə və hasarlana bilməz, habelə ora giriş-çıxış heç kim tərəfindən məhdudlaşdırıla bilməz.

2003-cü il yanvarın 13-də Heydər Əliyevin "Azərbaycan Respublikasında Xəzər dənizinin sahilindən istifadəyə dair bir sıra tədbirlər haqqında" imzaladığı sərəncamla bu problemə münasibət bildirilib: "Burada birmənalı göstəriş var ki, dəniz kənarından 130 metr məsafədə olan bütün tikililər qanunsuzdur və məhkəmə, yaxud da inzibati qaydada sökülməlidir.



Hesab edirəm ki, bu məsələ bulaqlara da aiddir. Heç kim, heç bir özəl qurum və ya təşkilat Azərbaycanın təbii irsini mənimsəyə, həmin ərazidə monopoliya yaradaraq qanunsuz pul tələb edə bilməz.

Əgər hər hansı bir təbiət guşəsinə giriş pulludursa, bu mütləq qanunla tənzimlənməli və müvafiq dövlət orqanının qəbul etdiyi qeyd olunan məsələni tənzimləyən qərarları olmalıdır.

Buradan da belə nəticəyə gəlmək olar ki, müvafiq dövlət orqanının rəsmi icazəsi olmadan bulaqlara giriş zamanı ödənişin tələb olunması tam qanunsuzdur".

*Ayşən Vəli*

# O uşaqlıq, bu uşaqlıq...

XATİRƏ

**Bu gündən dünənə... Baxır, hey baxıram. O uşaqlıq, bu uşaqlıq... O oyunlar, bu oyunlar  Uşaqların bir-birinə o sevgisi, bu sevgisi... Həyət dolu uşaqlar, həyat dolu uşaqlar. Məhəllələrin səsi-küyü, sevinci, şaqraq gülüşlü uşaqları. Nə oyunlar oynayardıq. "Beşdaş"dan başlardıq. Bunun üçün saatlarla daş axtarıb yığar-yığar, daha sonra içindən hamarların, yumruların, rənglilərin seçərdik ki, gözoxşayan, əlimizə yatan olsun... Günlərlə bu daşların ən qəşəngin axtarardıq. Hələ gözdən oğurlanıb daş yığmağa yollanardıq... Bu daşlarla günləri biz edərdik baş. Nə bir qüssə, nə bir kədər, deyə-gülə o qayğısız uşaqlığı bu daşlarla atar-tutar, barmaqların on çeşidli formasından keçirərək qalib olar, xoş saatlar yaşayardıq... Bu tək bir daş oyunumu? Xeyr. Bu daş oyunu zəkamızı artırardı, göz yaddaşı bəxş edərdi uşaqlara. Əllərimizin bir andaca hərəkəti saatlarla bir idmana bərabərdi. Daşlaşardı o mənalı uşaqlığımız bu daşlarda.**

**Gün, ay nədir? - ötən, gedən. Qalan nədir? - tək xatirə...**





Tək "Beşdaş"mı? Xeyr. "Evcik-evcik" oyunumuz da var idi. Daşıyardıq ev-eşikdən palaz-paltar, qab-qacaq, gəlinciklər küçəmizə. Bir guşəyə palaz açıb "evimizi" qurardıq biz. Biri ata, biri ana, biri də bala olardı. Çox sevimli ailəmizdə olanları evciklərə daşıyardıq. O illərin "Evcik-evcik" oyunundan yaddaşlara nələr hopub? Unudulmayan ən gözəli quru lavaşı ovub, üstünə də xırdalanmış pendir səpib "ailə" üçün hazırlanan yemək olub. Necə şirin yeyərdilər uşaqlar bu "yeməyi". Uzun illər bu "yeməyi" xəyallardan ala bilmir  Bir sözümüz birimizə bəd gələndə küsüşərdik, küsülülük yuxumuzu ərşə çəkər, küsülülük bitənədək əzab çəkər, barışmağa can atardıq.

Binaların blokları "konsert zallarımız" idi. Pilləkənlər oturacaq. Qarşıdakı kiçicik bir "meydança" da çalanların, oxuyanların yeri idi. Musiqi məktəbində oxuyan uşaqların biri qarmon, nağarasın, biri tarın, kamançasın gətirərdi. Səsi olan oxuyardı. Yaşıdımız tamaşaçılar pilləkəndə çalanları alqışlardı. Oxuduğumuz yerdəcə mahnıların sözlərini unudardıq, bir andaca deyib-gülüb bir-birimizə qarışardıq. Açılardı birinci mərtəbədən bir qapı: "Ay uşaqlar, sizin əlinizdən biz hara gedək?" Açılardı ikinci mərtəbədən bir qapı: "Ay uşaqlar, bu nə səsdir?"... Qovulmaq qorxusu çökərdi üstümüzə. Böyüklərə nə var ki, alardılar pillələri əlimizdən, sevdiyimiz bu "zalı". Başqa yerdə konsert olar? Tamaşaçı bəs harada əyləşərdi, çalanları, oxuyanları o haradan dinlərdi? Bax? bunları düşünərək susardıq biz... Xatirələrə çevrilən mənzərələr bu günlərdə anılanda düşünürəm: - Böyüklərin hirsinə baxmayın, qoymasaydılar, qoymazdılar bizi o pillələrə. O səs-küyə tab gətirmək asanmıdır? Gözlərinin önündəcə olmaq üçün onlar bizə susurdular. Tək bununçün? Xeyr. Lap sonralar bildim ki, mən onlar bizi qapılardan dinləyirmiş  Sən demə, tamaşaçı tək məhəllə uşaqları deyilmiş. Qapının o tərəfində bizlə yaman qürur duyan neçə-neçə analar da, xalalar da var imiş







"Yeddi daş", "Ortada qaldı", "Gizlən-qaç", "Bənövşə, bəndə düşə", "Ocaq yandı, su qaynadı", "Əlimi siçan dişlədi", " Xan-vəzir", "Tıx-tıx", "Dama-dama", "Fincan-fincan", "Top divarda"dan danışmıram. İndi məhəllə uşaqları hər üzü şumal olan yeddi daş heç axtarmırlar. Onları üst-üstə yığıb topun güclü zərbəsilə heç ətrafa dağıtmırlar. İndi heç "Alma desəm aç, armud desəm, açma!", - deyən də yoxdur. Dəqiqələrlə ortada qalıb topun zərbələrindən qurtulmaq üçün o yana-bu yana qaçan da yoxdur. Bənövşə də küskün düşüb, üz çevirib, heç yaxına gəlmir ki, bəndə düşə, ya düşməyə... Ocaq yanmır, su qaynamır.

Məhəllələrdə indi bir zamanlar təbaşirlə çəkdiyimiz dama yoxdur. Yağışın, bir də qarın pozmasından məyuslandığımız damaları gör nə vaxtdır, "sel aparıb". "Top divarda"n enib, "Xan-vəzir" ta unudulub, "Tıx-tıx" yada düşmür, "Fincan-fincan" da oynanmır. İndi artıq o körpəcə əlləri də heç siçanlar dişləmir. Siçanlar yerini "maus"a verib. "Maus"larsa əl dişləmir, ruhu dişləyir. Kompüterlər, smartfonlar, planşetlər, bir də ki playstationlar əvəzləyib o gözəl oyunları. Xoş xatirə qaynağı o ziyansız, zərərsiz oyunları

Tez-tez keçirəm məhəllələrdən. Yaman sükut çöküb məhəllələrə. Sanki uşaqlar yoxdur, hara isə gediblər. Lal sükut  Bu sükutu yaradan nə? Təbii ki, kompüter, telefonlar, planşetlər  Uşaqların əllərinə öz əlimizlə verdiyimiz xəstəliklər. Səsi çıxmasın, başı qarışsın, çöl-bayır istəməsin deyə, verdiyimiz telefonlar. Saatlarla kompüter qarşısına çökdürdüyümüz uşaqlar. Yorğun gözlər, əldən düşmüş sümüklər  Onurğası durğunluqdan "dil açan", özü isə əsla usanmayan, doymayan uşaqlar

Məhəllələrdə görürəm hərdən az-maz uşaq. Əllərində planşetlər, smartfonlar  Bir kənarda anaları söhbət edir qonşularla şirin-şirin. Uşaqlarsa saatlarla oyunlarda. Körpələri vəhşiliyə sürükləyən oyunlarda  Telefondan gələn səslərə bax, gör necə də ətraflarda gurlayır: atışmalar, çığırışmalar, vahimələr  Bir kənardasa yelləncəklər, on cür oyun qurğuları. Baxdıqca uşaq olmaq istəyirəm... Bir zamanlar heç tapmazdıq bunları. Ağaclardan kəndir asıb yelləncəklər qurardıq. Yelləndikcə nazikləşən kəndirlərsə qəflətən qırılar, üzüüstə yerə düşüb, yamanca yaralanardıq...

Hayqırmaq istəyirəm: - Ay uşaqlar, yerə qoyun telefonları, gəlin yellənin, atılın-düşün, gününüzü heç olmasa bu oyunlarla keçirin...

Ana susur, ata susur  Nə üçün görən? Özlərinin uşaqlıqda oynadığı oyunları görən niyə öyrətmirlər uşaqlara? Gözlərinin önündəcə övladları yuvarlanır ətalətə, xəstəliyə, süstlüyə  Bilə-bilə, görə-görə görən niyə susur ana? Olanlara, keçənlərə nə üçün göz yumur ata?

Heç gec deyil, ay atalar, ay analar! Uşaqları aparın öz keçmişinizə. Oyunlara qonaq edin, onlara da daddırın o şirinliyi, savab edin. O illərdən uşaqlara bir pay verin  Edin, hökmən edin. Uşaqlara gələcəkdə bir zamanlardan danışmağa söz verin

...Bir zamanlar " Beşdaş", "Yeddi daş" oynardıq. Başlayardı bu daşlardan oyunlarımız. Heç bitməzdi, tükənməzdi  Daşlaşıbdır uşaqlığımız o daşlarda. O kiçicik daşlardan başlayan oyunlarda  Harda görsən o daşlardan, xatirələr düşür yada. Şirin-şəkər xatirələr. Uşaqlıqdan qalan gözəl xatirələr...



İndi deyin, necə uçmasın xəyal o illərə? Noğul kimi oyunlardan bu gün əsər qalmayan o illərə

***Mətanət Məmmədova***

# Əli Kərimli təşviş və qorxu içindədir

## 5 min üzvün siyahısının Ədliyyə Nazirliyinə təqdim edilməsi mümkün olmadığından AXCP rəhbərliyi çıxılmaz vəziyyətə düşüb



Azərbaycanda dövlətinin əsas hədəfi və məqsədi insanların daha firavan, rahat, təminatlı və təhlükəsiz yaşamasıdır. Bu istiqamətdə ən zəruri tələblər icra edilir, işlər həyata keçirilir. Vaxtaşırı müasir dövrün tələblərinə uyğun olaraq islahatların həyata keçirilməsi cəmiyyətimizdə yüksək məmnunluq yaradır. Təbii ki, aparılan islahatlar sistemində dövlətin diqqət çəkdiyi əsas məsələlərdən biri də siyasi sistemin təkmilləşdirilməsi, müasir dövrün tələblərinə uyğun mexanizmin qurulmasıdır. Dövlətimiz həyata keçirilən çoxşaxəli islahatlar kursuna uyğun olaraq siyasi partiyaların fəaliyyətinin səmərəliliyinin daha da artırılması üçün müxtəlif addımlar atıb, qanunlar qəbul edilib. "Siyasi partiyalar haqqında" qanunun qəbul edilməsi də təxirəsalınması qeyri-mümkün olan zəruri qanunlardandır. Qanunun qəbulundan çoxsaylı siyasi partiya üzvləri və funksionerləri razılıqlarını ifadə etsələr də, narazılıqlarını bildirib, hay-küy qaldıranlar da var. Xüsusilə də, hay-küy qaldıranlar ənənəvi dağıdıcı müxalifət partiyaları və onların rəhbərləridir. "Siyasi pariyalar haqqında" qanuna görə, siyasi partiyalar təkrar qeydiyyatdan keçməli və bu zaman Ədliyyə Nazirliyinə 5 min imza təqdim etməlidir. Rəsmi məlumata görə, 27 siyasi partiya üzvlərinin siyahısını nazirliyə təqdim edib. Bildirilib ki, "Siyasi partiyalar haqqında" Qanuna əsasən, partiyaların üzvlərinin reyestrinin qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması zamanı onların bəzilərində qüsurlar, o cümlədən - üzvləri olmayan, vəfat etmiş şəxslərin reyestrə daxil edilməsi, bəzi şəxslərin adlarının təkrarlanması halları aşkarlanıb. Nöqsanlarla bağlı partiyalara məlumat göndərilib, reyestrdə aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün 30 gün vaxt verilib.

### Əli Kərimlinin saxtakarlıq cəhdi baş tutmadı

Araşdırmalar zamanı bəlli olub ki, özünü aparıcı müxalifət partiyası kimi təqdim etməyə çalışan AXCP-nin sənədlərində çoxsaylı saxtakarlıqlar var. AXCP-nin Ədliyyə Nazirliyinə təqdim etdiyi 5315 nəfər üzvün 2497 nəfər barədə məlumatlar (adı, soyadı, ata adı, doğulduğu tarix) düzgün göstərilməyib. Həmçinin aşkarlanıb ki, 119 nəfər başqa partiyaların üzvləridir və 59 şəxs barədə məlumatlar təkrarlanıb, 609 nəfər isə, ümumiyyətlə, AXCP üzvü deyillər. Bu kimi saxtakarlıqlara cəhdlər onu təsdiq edir ki, Ə.Kərimli ənənəvi ampluasındadır. O dövrün islahatlar sistemindən, müasir yeniliklərdən kənarda qalıb. Anlamır ki, informasiya-texnologiyalarının inkişaf etdiyi bir zamanda saxtakarlıqları, dələduzluqları üzə çıxarmaq sadə və asan bir işdir. Əvvəlcədən də bəlli idi ki, Ə.Kərimli 5 min nəfərlik üzvün siyahısını Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təkrar qeydiyyat üçün təqdim edə bilməyəcək. Çünki sosial bazası olmayan AXCP-də nəzərdə tutulan sayda insan yoxdur. Bu səbəbdən şivən salıb, diqqəti özünə cəlb etməyə çalışır. Sosial şəbəkələrdə paylaşdığı statusunda hədələyici mesajlarla çıxış edir, ultimativ bəyanatlar səsləndirir: "AXCP "Siyasi partiyalar haqqında" yeni qanun müzakirəyə çıxarılandan bəri onun mürtəce və ilk fürsətdə ləğv edilməli olduğunu bəyan edib, bundan sonra da bütün hallarda bu mövqeyində qalacaq. Lakin öz qeydiyyatının ləğv olunmasına hər hansı bəhanə verməmək üçün AXCP 5 min nəfərdən artıq üzvünün reyestrini Ədliyyə Nazirliyinə təqdim edib. Təqdim edilmiş siyahı çox diqqətlə hazırlanıb və təkrarən ciddi təftiş olunub".

### Əli Kərimliyə xatırlatma, "Ədliyyə Nazirliyi siyasi partiyaların qeydiyyatını ləğv etmək hüququna malik deyil"

Ə.Kərimliyə başa salmaq lazımdır ki, əgər doğrudan da, dəfələrlə siyahı təftiş olunduqdan sonra Ədliyyə Nazirliyinə təqdim olunubsa, o zaman nazirlik niyə siyahını geri qaytarıb? Başqa vaxtı savadlı hüquqşünaslarınızın, ekspertlərinizin olduğunu iddia edirsiniz, niyə bu "ağıllı", "savadlı" məxluqlarınız siyahınızı düz-əməlli yoxlanışdan keçirməyib. Əgər əsaslı yoxlanış aparılsa idi, o zaman siyahının başdan ayağa qüsurlardan ibarət olduğunu üzə çıxarardı. Məlum olardı ki, siyahıda adları keçən şəxslərin bir qismi AXCP üzvləri deyillər, digərlərinin ad və soyadları yanlış olaraq yazılıb. Ə.Kərimli cəfəng sayıqlamasında iddia edir ki, əgər siyasi sifariş olmasa, onun qeydiyyatı ilə bağlı hər hansı problem yaranmamalıdır: "Lakin çox təəssüf ki, bəzi ilkin əlamətlərdən Ədliyyə Nazirliyinin siyasi sifarişlə AXCP-nin qeydiyyatını ləğv edə biləcəyi də hiss olunur. Hakimiyyət AXCP-nin qeydiyyatını ləğv etmək, daha sonra ağır maddi sanksiyalarla partiya üzvləri və rəhbərliyinin siyasi fəaliyyətinə mane olmaqla ölkədə real müxalifətçiliyi ortadan qaldırmaq niyyətini gerçəkləşdirmək istəyə bilər və əslində, "Siyasi partiyalar haqqında" yeni qanun və İnzibati Xətalar Məcəlləsinə düzəlişlər bilavasitə bu məqsədlə qəbul olunub".

Yenə də Ə.Kərimlini başa salmaq istəyirəm ki, ay özünü çoxbilmiş kimi təqdim edib, əslində, qanunlardan xəbərsiz olan, bil və agah ol ki, Ədliyyə Nazirliyi siyasi partiyaların qeydiyyatını ləğv etmək hüququna malik deyil: "Siyasi partiyaların qeydiyyatını məhkəmələr ləğv edə bilər. Digər tərəfdən isə, partiyaların kollegial orqanlarının ümumi qərarı əsasında siyasi partiyanın fəaliyyəti dayandırıla bilər".

Əli Kərimli hər məqamda AXCP-nin əsas "aparıcı" müxalifət partiyası olduğunu göstərməyə çalışır və ənənəvi hədələyici metodla çıxış edərək sayıqlayır: "AXCP bəyan edir ki, onun qeydiyyatına hər hansı problem yaratmaq, ölkədə de-fakto ana müxalifət partiyası olan bir partiyanın fəaliyyətini qadağan etmək cəhdləri hakimiyyətin özü üçün də ciddi fəsadlar yaradar. Başqa yandan, insanların Ədliyyə Nazirliyinin reyestr təsdiqi olmadan siyasi fəaliyyətlə məşğul olmasını böyük qanun pozuntusu kimi qiymətləndirib, ağır maliyyə sanksiyaları ilə cəzalandırmaq Azərbaycan Konstitusiyasına da, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq normalara da ziddir və bunun ciddi etirazlar doğuracağı şübhəsizdir".

Bir sözlə, Ə.Kərimli təşviş və qorxu içində son çabalarını göstərməkdədir. Çünki AXCP-nin reyestrdən təkrar qeydiyyatı alınması mümkün olmadıqda, o siyasətdən getməli olacaq. Təbii ki, bu halda ətrafına yığılanlar və xaricdəki maddi dəstəkçilər onu sorğu-sual edib, izahat istəyəcəklər. Pullarını geri istəyənlər də olacaq. Ə.Kərimli isə suallara cavab verməkdə çətinlik çəkəcək. Axı bu günə qədər o, pafoslu danışır, AXCP-nin böyük sosial bazasının olduğunu iddia edirdi. 5 min üzvün siyahısını Ədliyyə Nazirliyinə təqdim edə bilməməsi isə deyilənlərin sabun köpüyündən başqa bir şey olmadığını ortaya qoyacaq.

**İ.ƏLİYEV**

# "Ermənistan ağır məğlubiyyətə düçar olub"

**"Ermənistan müharibəni döyüş meydanında uduzub, diplomatik cəbhədə də acı məğlubiyyətləri göz önündədir. Bir yolları qalır sözdə yox rəsmi şəkildə Azərbaycanın ərazi bütövlüyünü tanımaq şərti ilə sülh müqaviləsini imzalamaq". Bunu "Səs" qəzetinə açıqlamasında Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Anar Xəlilov deyib.**




Onun sözlərinə görə, Ermənistanın indiki hakimiyyəti də bunu Fransanın, İranın təzyiqi altında bunu imzalamaq iqtidarında görünmür: "Qalır bir yol o da təxribat, yalandan vay-şivən bir sözlə cığallıq. Ermənistanda kim hakimiyyətdə olursa olsun bilməliyik ki, o ermənidir. Ermənistanın əvvəlki cinayətkar rejiminin 30 il ərzində şousunu çox gördük. İndi də özünü "demokrat" adlandıran onlardan, sadəcə, yiyəsi ilə fərqlənən Paşinyan hökümətinin şousunu görürük. Şounun rejissor və ssenaristləri də Fransa, İrandır. Düzdür, digər yaradıcı heyətlər də var, amma beynəlxalq hüquq normaları və Azərbaycanın mövqeyi onların səsini kəsib. Laçın sərhəd keçid məntəqəsi ətrafında baş verən bugünkü şou da Ermənistana sonda böyük rüsvayçılıq gətirəcək. Təəssüf ki, Qarabağda bu gün yaşayan erməni əsilli əhali hələ də 35 ildir onlardan necə istifadə olunduqlarını dərk edə bilmirlər. Əgər dərk etsəydilər, 44 günlük Vətən müharibəsindən sonra dərhal separatçıları Xankəndindən qovub Azərbaycan vətəndaşlığını qəbul edərdilər. Dərk edə bilmədilər ki, Azərbaycan ordusu Xankəndi ətrafında dayanmaqla onlara bu son şansı verdi.



Beynəlxalq hüquqa hörmət etdi. Amma erməni əsilli əhali yenidən 88-ci ildə olduğu kimi siyasi qüvvələrin təsirinə və əsarətinə düşdü. Bu gün əslində humanitar şou adı altında erməni əsilli sakinlərin mənafeyi yox bölgədə Fransa və İranın siyasi oyunlarının şousu gedir. Azərbaycanın mövqeyi ortadadır öz ərazi bütövlüyünü qorumaq və erməni əsilli vətəndaşlarını da bu quldurlardan qorumaq. Azərbaycanın özünün gücü var ki, tək Qarabağdakı erənləri yox bütün Ermənistanı humanitar yardımla təmin edə. Sadəcə, Xankəndidə müvəqqəti əyləşən quldurlar yerli əhalinin əli ilə buna mane olur və Ağdam-Xankəndi yolunun açılmasına mane olur. Eyni zamanda, Ermənistan hökuməti də Laçın sərhəd keçid məntəqəsi ətrafında şou yaradaraq beynəlxalq qurumlara hay-küylə şikayət edir. BMT Təhlükəsizlik Şurasında son müzakirə də göstərdi ki, burada da onlar, sözün əsl mənasında, fransız bacıları ilə birgə acı məğlubiyyətə düçar oldular. Artıq dünya ermənilərdən yorulur. Ermənilər isə əməllərindən yorulmaq istəmir. Bu şounun sonu mənim fikrimcə, Ali Baş Komandanın Dəmir yumruğu işə salması ilə və Xankəndində separatçı rejimin ləğvi ilə nəticələnəcək. Nə qədər gec deyil ermənilər bunu başa düşsə, onlar üçün yaxşı olar. Hərçənd inanmıram bunlar ağıllana. İran vasitəsilə Hindistandan nəsə silah daşıyırlar hələ. Daha başa düşmürlər ki, reallıq başqadır burada "Hind fıimi" çəkilmir. Real olan "Dəmir yumruq", Azərbaycan ordusunun zərbəsi və Cənab Ali Baş Komandanın siyasi iradəsidir!"

MÜNASİBƏT

**GÜLYANƏ**

# Uşaq doğumu azalır, əhalimiz qocalır: Nə etməli?



Azərbaycanda uzun əsrlər demoqrafik artımla bağlı heç bir çətinlik yaşanmayıb. Amma son onilliklərdə vəziyyət dəyişir və bizdə artıq doğumun azalması və əhalinin qocalması tendensiyası yaranıb. Bu prosesi necə dayandırmaq və ya yavaşlatmaq olar? Bu yazıda bu məsələni araşdırmağa çalışmışıq.

Əhalinin qocalması dövrümüzün aktual problemlərindən biridir. İnkişaf etmiş ölkələr əhalinin qocalması ilə digərlərinə nisbətən daha tez qarşılaşdılar. İndi bu, dünya miqyasında bir tendensiyaya çevrilib. Keyfiyyətli tibbi xidmət sayəsində insanlar daha uzun yaşamağa başladı, uşaq ölümü azaldı, amma doğum nisbəti getdikcə azaldı. Getdikcə daha çox ailə uşaq sahibi olmağı gecikdirir, ilk növbədə, daha yaxşı yaşayışını təmin etmək istəyir. Çoxuşaqlı ailələr nadir hala çevrilib. "Bir uşaq üçün layiqli həyat təmin etmək daha asandır" deyə bir çox gənc belə düşünür və təəssüf ki, burada o qədər də haqsız deyillər. Hazırda, 3 və daha çox uşağı saxlayıb böyütmək əksəriyyət üçün çox çətindir. Ona görə də müasir ailələr 1 və ya 2 uşaqdan ibarət olur.

Əhalinin azalmasını təmin etmək üçün ölkədə doğum səviyyəsi hər ailəyə görə 3 uşaq olmalıdır. İnkişaf etmiş ölkələrdə miqrasiya bu işə öz töhfəsini verir - gənclər daha yaxşı həyat üçün bu ölkələrə gedir, yaşlılar isə qalır inkişaf etməmiş ölkələrdə qalır.

BMT-nin araşdırmasına görə, dünyada 65 və daha yuxarı yaşda olan insanların sayı yaxın üç onillikdə iki dəfə artaraq 2050-ci ildə 1,6 milyarda çatacaq. Avropada bu proses ən çox İtaliya, İspaniya, Yunanıstan və Portuqaliyaya təsir edəcək. Honq-Konq, Cənubi Koreya və Yaponiya kimi inkişaf etmiş Asiya ölkələrində 65 yaşdan yuxarı əhali təxminən 40% təşkil edəcək.

Bəs Azərbaycanı nə gözləyir? Ölkəmizdə, proqnozlara görə, yaşlı əhalinin xüsusi çəkisi də xeyli artacaq. Artıq qocalma prosesi müşahidə olunur: son 10 il ərzində yaşlı vətəndaşların sayı 6,2%-dən 7,1%-ə yüksəlib. Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda ölkədə 580,8 min nəfər 60-64 yaş, 396,7 min nəfər 65-69 yaş, 462,7 min nəfər 70 yaşdan yuxarı vətəndaş yaşayır.

Belə bir vəziyyətin təhlükəsi nədir? Əvvəla, dövlətin sosial yükü artır. Səbəbsiz deyil ki, bir çox ölkələrdə, o cümlədən bizdə pensiya yaşını qaldırırlar. Baxmayaraq ki, indi insanlar daha fəaldır, əhalinin qocalması ilə işçi qüvvəsi çatışmazlığı qaçılmazdır və iqtisadiyyat durğunlaşa bilər. Səhiyyə sisteminə daha çox təzyiqbaş verir.

Bəs nə etməli? Əhalinin qocalmasına qarşı mübarizədə doğum səviyyəsinin stimullaşdırılması əsas tədbirlərdən biridir. Norveçdə uşaq dünyaya gələnə qədər işləmiş yeni analar bir il maaşının 80%-ni və ya 42 həftəlik tam maaş alırlar. Atalar üçün atalıq məzuniyyəti də var. Uzun müddətdir ki, "Bir ailə-bir uşaq" siyasəti yürüdən Çində indi ikinci və sonrakı uşaqlar üçün nağd ödənişlər var. Rusiyada doğum nisbəti ilə bağlı çətin vəziyyət var. Bunu ailələrin, əsasən, mənzil şəraitinin yaxşılaşdırılmasına xərclədiyi analıq kapitalı ilə və aylıq uşaqpulu verməklə düzəltməyə çalışırlar.

Uzun müddət Azərbaycanda doğum səviyyəsi ilə bağlı problem yox idi və çoxları hesab edirdi ki, bunu stimullaşdırmağa ehtiyac yoxdur. Amma indi statistika narahatlıq yaratmağa başlayıb. Dəstək tədbirlərindən yalnız uşaq doğulanda 500 manat birdəfəlik müavinət verilir. Bu, kifayət deyil, çünki həmin vəsait uşağım doğum xərcini belə ödəmir.

Nəticədə, ailələrdə uşaq sayı minimuma enib. Beynəlxalq təşkilatların proqnozları və müşahidə etdiyimiz tendensiyalar vəziyyətin ciddiliyini açıq şəkildə göstərir. Artıq biruşaqlı ailə modelinə keçmişik, iki-üç uşaqlı ailələr getdikcə azalır. Bir millətin varlığını davam etdirməsi üçün orta hesabla hər ailədə ən azı 3 uşaq olmalıdır. Son 5-6 il ərzində uşaqların sayı 4%, əhalinin ümumi tərkibindəki payı isə 6% azalıb.

Əhali qocalır və bu, təkcə mənəvi-psixoloji problem deyil, həm də sosial-iqtisadi problemdir. Yaşlı əhalinin xüsusi çəkisinin artması dövlətin üzərinə əlavə maliyyə yükü, əmək qabiliyyətli vətəndaşların sayının azalması, hər 1000 işçiyə düşən pensiyaçıların sayının artması, əmək haqqının azalması, sosial xərclərin artmasıdır. Bu səbəbdən əksər ölkələr öz əhalisini və uşaq və gənclərin nisbətini artırmaq üçün bir çox tədbirlər görürlər. Buraya uşaq üçün aylıq müavinət, ev, torpaq sahəsi, avtomobil də daxil olmaqla çoxsaylı təşviq və güzəştlər daxildir.

Uzun illərdir ki, biz jurnalistlər, sosioloqlar, eləcə də bəzi deputatlar, ictimai xadimlər Azərbaycanda uşaq müavinətlərinin bərpası ilə bağlı hökumətə və parlamentə təkliflər verirk. Bunun üçün kifayət qədər maliyyə və iqtisadi imkanlar var. Amma hələlik, bu istiqamətdə heç bir irəliləyiş yoxdur. Hesab edirəm ki, ilkin mərhələdə hər uşağa ayda ən azı 100 manat, doğuşa görə isə 5 min manat verilə bilər. Heç olmasa, aylıq gəliri adambaşına 500 manatdan aşağı olan ailələr üçün bunu etmək olardı.

Arqument kimi qeyd olunur ki, aztəminatlı ailələrə guya ünvanlı sosial yardım ödənilir. Amma buna baxmayaraq, qeyri-qənaətbəxş şəraitdə yaşayan uşaqlar var. Uşaq müavinəti daha məqsədyönlü və şəffaf olardı.

Buna baxmayaraq, etiraf etmək lazımdır ki, ailələrdə uşaqların sayının kəskin azalması təkcə sosial-iqtisadi problemlərlə bağlı deyil. Varlı ailələrin əksəriyyətinin bir və ya iki uşaqdan çoxu yoxdur. Həyat tərzi, mənəvi dəyərlər, psixologiya- hər şey dəyişib. Çoxları artıq özlərini uşaqlara həsr etmək istəmirlər. Bir sıra başqa obyektiv səbəblər də var: nikahların sayı azalıb, sonsuzluq artıb. Bütün bu səbəblər bizi demoqrafik fəlakətə sürükləyir. İndi tədbir görməsək, sonra gec olacaq.

***Elçin Bayramlı***
***Sağlam Cəmiyyət Hərəkatının rəhbəri***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

## AzerTelecom və KazakhtelecomTransxəzər Fiber-Optik layihəsi çərçivəsində birgə müəssisə yaradıblar

***Azərbaycanın və Qazaxıstanın aparıcı telekommunikasiya şirkətləri AzerTelecom və Kazakhtelecom "Rəqəmsal İpəkYolu"(Digital Silk Way) meqalayihəsinin əsas komponentlərindən biri olan Transxəzər Fiber-Optik Kabel Xətti layihəsinin icrası istiqamətində birgə səyləri ni davam etdirir.***

Əməkdaşlıq çərçivəsində Azərbaycan tərəfindən AzerTelecom, Qazaxıstan tərəfindən isəKazakhtelecom şirkətləri Xəzər dənizinin dibi ilə Azərbaycan-Qazaxıstan marşrutu üzrə Transxəzər Fiber-Optik Kabel Xəttinintikintisi və istismarına cavabdeh olan birgə müəssisə yaradıblar.

Daha əvvəl imzalanmış Səhmdarlar müqaviləsi əsasında AzerTelecom şirkətininƏməliyyatlar üzrə Baş direktoru Sergey Nazarenko və Kazakhtelecom şirkətininDövlət qurumları ilə biznesin inkişafı üzrə İcraçı direktoru Akimjan Axılbekov şirkətin qeydiyyata alınmasına dair sənədi imzalayıblar. Tərəflər Transxəzər Fiber-Optik Kabel Xəttinintikintisinin həyata keçirilməsi üçün yeni təsis olunan birgə müəssisəyə öz dəstəyini ifadə ediblər.

"Birgə müəssisənin yaradılması tərəflərin Transxəzər kabel sisteminin qurulması istiqamətində atdıqları daha bir mühüm addımdır. Bu addım hər iki şirkətin bu beynəlxalq əhəmiyyətli layihənin icrasına sadiqliyinitəsdiqləyir. Birgə müəssisə "Rəqəmsal İpək Yolu" layihəsinin vacib elementi olan, Asiya və Avropa arasında çoxterabitli həcmdə məlumat ötürülməsini təmin edəcək Transxəzər Fiber-Optik Kabel Xəttininyaradılmasına sərmayə yatıracaq. "Rəqəmsal İpək Yolu" marşrutu biznes mühitinin yaxşılaşdırılmasında, iqtisadi inkişafda və ölkələrin dünya miqyasında mövqelərinin yüksəldilməsində mühüm rol oynayacaq. Bu, regional əməkdaşlıq üçün də yeni imkanlar açacaq", - deyə AzerTelecom şirkətininƏməliyyatlar üzrə Baş direktoru Sergey Nazarenko bildirib.



Xəzər dənizinin dibi ilə çəkiləcək kabel xəttinin uzunluğu 380 km,məlumat ötürmə qabiliyyəti isə 400 terabit/s-ə qədər təşkil edəcək.

"Bu layihəni regionun ən əhəmiyyətli layihəsi etmək üçün əməkdaşlığımızı daha da gücləndirməyə çalışırıq. Hədəflərimiz, həmçinin Asiyadan Avropaya yayılacaq rəqəmsal xidmətlərin və məhsulların artımını sürətləndirəcək yeni tərəfdaşlıqların qurulmasında da özündə ehtiva edir", - deyə Kazakhtelecom şirkətinin Dövlət qurumları ilə biznesin inkişafı üzrə İcraçı direktoru Akimjan Axılbekov bildirib.

Qeyd edək ki, "Rəqəmsal İpək Yolu" layihəsi, ABŞ-da keçirilən Qlobal Strateji İnfrastruktur Liderlik Forumunda Asiyada beş ən yaxşı strateji infrastruktur layihələrindən biri kimi seçilib.

AzerTelecom Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur və NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir. NEQSOL Holding doqquz ölkədə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərir. Kazakhtelecom Qazaxıstanın ən böyük telekommunikasiya şirkətidir və milli telekommunikasiya operatoru statusuna malikdir.

## "Bakcell"in baş sponsorluğu ilə 3-cü "YAŞAT" düşərgəsi davam edir

"Bakcell"in baş sponsorluğu, "YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən və Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan 3-cü "YAŞAT" düşərgəsi davam edir. Şamaxı rayonunda, "Shamakhi Palace Sharadil" otelində təşkil olunan və 7 həftə davam edəcək düşərgədə 350-dən çox uşaq iştirak edir. Düşərgə ərzində uşaqlar üçün interaktiv təlimlər, tanınmış şəxslər ilə görüşlər, ekskursiyalar, təlim və konsultasiyalar, eləcə də əyləncəli konsert proqramları keçirilir.



Bu dəfə, düşərgənin qonağı "Bakcell" şirkəti olub. "Bakcell" uşaqlar üçün "Cizgi filmini yaradıram" mövzusunda proqramlaşdırma master-klası təşkil edib. Uşaqlar "Scratch" proqramlaşdırma platformu üzərində öz qısa cizgi filmini kodlaşdırıblar. Bu fəaliyyət düşərgə iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb. Şəhid və qazilərin ailə üzvlərinə qayğı və diqqətin göstərilməsi "Bakcell" şirkətinin KSM proqramının əsas istiqamətlərindən biridir. "Bakcell" şirkəti NEQSOL Holding-in tərkibinə daxildir.

Məlumat üçün bildirək ki, şəhid və qazi ailələrinə dəstək NEQSOL Holding və "YAŞAT" Fondu arasında bu ilin əvvəlində imzalanan Anlaşma Memorandumu çərçivəsində həyata keçirilir. Memoranduma əsasən, NEQSOL Holding "YAŞAT" Fonduna bu il üçün 500 min AZN vəsait ayırıb. Vəsait hesabına il ərzində şəhid ailələrinə və qazilərə müxtəlif sosial dəstək göstərilir, eləcə də bir sıra xüsusi layihələr həyata keçirilir. Qeyd edək ki, "Bakcell" şirkəti hazırda "Bakcell" ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir.

SƏS
23 avqust
2023-cü il

# İnternetin keyfiyyəti turizmə necə təsir göstərir?

*EKSPERT AYDINLIQ GƏTİRDİ*






**"Ümumiyyətlə, internetin keyfiyyətinə görə Azərbaycan dünya ölkələri arasında heç də ilk sırada deyil. Düzdür, internet ölkəmizdə yayqın olsa da, sürətinə görə kifayət qədər yaxşı yer tutmur. Bu, yalnız turizm sektoruna deyil, bütün müəssisələrə aiddir". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib.**

Onun sözlərinə görə, müasir dünyada hər bir müştərinin, eyni zamanda, turistlərin də gözləntiləri hər şeyin mümkün qədər tez və keyfiyyətli həll yollarının tapılmasıdır: "O cümlədən, xidmətdə də sürət və keyfiyyət tələb edirik. Təbii ki, internet də bu xidmətlərə daxildir. Bu, yeni nəslin tələbatıdır. Ona görə də bu tələbatı ödəmək üçün turizm müəssisələri müştərilərin istəklərinə uyğun məhsullar hazılamalıdır. İnternetin sürətini də artırmaq turizm üçün önəmli addımlardandır".

"Eyni zamanda, turistlərin məmnunluğu üçün xidmət yüksək səviyyədə olmalı, gediş-gəliş daha əlçatan olmalıdır. Bugünkü gündə insanların çoxu daha əlverişli qiymətlərlə təyyarə ilə uçuşa üstünlük verirlər. Ümumilikdə günümüzdə həyat tempi sürətləndiyi üçün insanlar da hər hansı bir şey üçün uzun müddət gözləmək istəmirlər. Biz hər zaman qeyd edirik ki, turizmin inkişafı üçün sağlam rəqabət mühitinin daha da genişləndirilməsi və bu mühitdə əlverişli qiymətin, keyfiyyətli xidmətin təmin olunması, günün tələbinə uyğun olaraq problemlərin tez bir şəkildə öz həllini tapması məsələləri önəm kəsb edir"- deyə o əlavə edib.

***Ləman***

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## "Nar" abunəçiləri parkinq xidmətini SMS ilə ödəyə biləcək

İndi "Nar" abunəçiləri heç bir parkinq ödəmə cihazından istifadə etmədən, sadəcə SMS ilə parklanma üçün nəzərdə tutulmuş ərazilərdə avtomobillərini mimimum 30 qəpikdən başlayan ödənişlə park edə bilər.




Parkinq üçün uyğun yer tapdıqdan sonra xidmətdən istifadəyə başlamaq çox sadədir. Ardıcıllığa əməl etməklə, avtomobilin qeydiyyat nişanı, parklanma məntəqəsinin nömrəsini və parklanma yerini (Məsələn: 10XX000 - 10001 - 1) yazıb 1181 qısa nömrəsinə SMS göndərərək parking zamanını başladırsınız. Parkinqdən çıxarkən isə "SON" yazıb 1181 qısa nömrəsinə SMS göndərmək lazımdır. Bu zaman parkinqdən istifadə müddətiniz hesablanacaq və ödəniş məbləği "Nar"ın öncədən ödənişli tarifində olan abunəçilərin balansından avtomatik çıxılacaq. Korporativ müştərilər isə AzParking tətbiqi üzərindən müxtəlif üsullarla ödənişi həyata keçirə bilərlər. Ətraflı məlumat üçün nar.az/parkinq səhifəsinə daxil ola bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Universitet tələbələri mobil telefonların vergidən azad edilməsindən yararlanacaqlar

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan tələbələrə birdəfəlik vergisiz telefon və kompüter satışının ediləcəyini açıqlayıb. SİA bu barədə Türkiyə mətbuatına istinadən xəbər verir. Bəs tələbələr üçün telefon endirimi nə vaxt olacaq? Vergisiz telefon satışı nə vaxt başlayacaq?**



Məsələ ilə bağlı prezident Rəcəb Tayyib Ərdoğan, "Cib telefonu və kompüterlərin alınması üçün onları vergidən azad edəcəyik. Həmçinin, ayda 10 GB pulsuz internetlə də təmin edəcəyik" sözlərini işlətmişdi. Nazir Mehmet Şimşek, universitet tələbələrinə yalnız bir dəfəlik vergisiz kompüter və telefon imkanları verilməsi işlərinin davam etdiyini açıqladı. Ali təhsildə gənclərin cib telefonu və kompüter alması üçün vergidən azad edilməsi ilə bağlı bir araşdırma olub-olmadığını soruşduqda, Şimşek bu mövzuda araşdırmanın olduğunu, lakin detalları paylaşa bilməyəcəyini söylədi.

M.Şimşek, yeni qanunvericilik ilinin başlaması ilə məsələnin gündəmə gəlib-gəlməyəcəyi sualına, "Təbii ki, hüquqi tənzimləmə tələb edən mövzularda TBMM açılmalıdır" dedi. Universitet tələbələri mobil telefonların vergidən azad edilməsindən yararlanacaqlar. Tənzimləmə birdəfəlik həyata keçiriləcək. Universitetlərin assosiasiya və bakalavriat şöbələrində təhsil alan tələbələr vergisiz mobil telefonlardan yararlana biləcəklər. Tələbələrə vergisiz telefon, planşet və kompüter satışının şərtləri hələ açıqlanmayıb. Nazirlər Kabinetinin iclasından sonra müraciət şərtlərinin prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən açıqlanması gözlənilir.

***Ayşən Vəli***

## ELAN

ARPII-nin "Aqrokompleks"müəssisəsi tərəfindən Babayeva Sevil Akif qızına verilmiş 20 N-li xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**